

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

№ 060 (6743)

8 aprel 2023-cü il.
Qiymәti 60 qәpik


## Milli Məclisin plenar iclası keçirilib, 20 məsələ müzakirə olunub



4

## Azərbaycan-Gürcüstan: Möhkəm dostlar, etibarlı tərəfdaşlar!

2



# Diplomatların "Məkkəsi"



*Dünya siyasət burulğanında çabalayır, söz sahibi olan, dünyaya ağalıq eşqinə düşən iri dövlətlər bir-biri ilə didişərkən bunu necə sonuclandıracaqlarını heç düşünməyiblər. Rusiya-ABŞ, NATO-Rusiya, Şərq-Qərb, Şimal-Cənub, Avropa-Asiya, okeanın o tayı ilə bu tayı münaqişə həddindədirlər. Dünyanın ikiyə, yaxud üçə bölünmüş qütbünü bir masa ətrafında oturdacaq bir qüvvə də ortada yoxdur.*

7

## Maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan qardaşlığı!



5

## Dərs ili bitməmiş buraxılan məktəblilər



15

## Orqan ticarəti: İnsanların orqanları yalnız sağ ikən götürülür



14

## Söz, fikir, məlumat azadlığı və plüralizm dövlət siyasətinin başlıca prioritetlərindəndir



6

## "Uşaqları cinsi istismar edənlər kəskin şəkildə cəzalandırılmalıdır"

*"Təəssüf ki, uşaqların qrup halında və ya yaşlı nəsil nümayəndələri tərəfindən seksual zorakılığa tuş gəlməsi faktları günü-gündən artmağa başlayıb. Azərbaycan cəmiyyəti, bizim mental dəyərlərin tarixi üçün yad olan, ümumiyyətlə, indiyə ...*



16

# Azərbaycan-Gürcüstan: Möhkəm dostlar, etibarlı tərəfdaşlar!





***Müstəqil dövlət kimi, Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Belə ki, o cümlədən Azərbaycan-Gürcüstan dövlətləri arasında siyasi-iqtisadi münasibətlərin indiki səviyyəyə gəlib çatması iki ölkənin xalqları arasında tarixən mövcud olan sıx əlaqələr, mehriban qonşuluq münasibətləri, bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. İki ölkə arasında diplomatik əlaqələr – 31 il əvvəl 1992-ci ildə qurulub.***

## *İLHAM ƏLİYEV: "Müzakirə olunan məsələlər bir məqsədi güdür ki, ikitərəfli əməkdaşlığı dərinləşdirək və xalqlarımızın gələcəyi üçün lazım olan bütün addımları ataq"*





1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı iki xalq arasında münasibətlərin inkişafına yeni imkanlar açdı. Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir.

Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. 1998-ci il sentyabrın 7–8-də keçirilmiş Tarixi Böyük İpək yolunun bərpası üzrə Beynəlxalq Konfrans keçirildi, 1998-ci il oktyabrın 7-də Azərbaycanın Gürcüstanla sərhədində yeni körpünün açılışı oldu, 1999-cu il aprelin 17-də isə Bakı-Supsa neft kəməri işə salındı. Ötən dövrdə hər iki ölkənin həyatında tarixi əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinin tikintisi sahəsində intensiv işlər aparılıb.Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə bu münasibətlər daha da dərinləşmişdi. Nəhayət, 2005-ci il mayın 24–25-də neft kəmərinin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi.

TƏHLİL

## AZƏRBAYCAN PREZİDENTİ: "Həm Gürcüstanın, həm də Azərbaycanın maraqlı tarixi yerləri ilə tanış olmağımız dostluğumuzu daha da gücləndirir"

Aprelin 7-də Qəbələdə Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana işgüzar səfəri mövcud əlaqələrin davamlı xarakter daşımasına söykənir. Bu, Azərbaycan və Gürcüstan arasındakı dostluq və qardaşlıq münasibətlərinə yeni təkan verəcək və bölgədə gedən proseslərin, təhlükəsizliklə bağlı olan məsələlərin birgə müzakirələri əməkdaşlığın yeni müstəviyə yüksəlməsinə səbəb olacaq.

Yüksək səviyyədə qarşılanmadan sonra Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə işgüzar səfərə gələn Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olub. Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin olduğu qeyd edildi.

Prezident İlham Əliyev keçən ilin oktyabrında Gürcüstana səfərini məmnunluqla xatırladı və səfər zamanı aparılmış müzakirələrin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Gürcüstanın Baş nazirinin bu səfəri zamanı aparılacaq müzakirələrin önəmini vurğuladı. Azərbaycan Prezidenti bu səfərlər çərçivəsində görüşlərin məhz regionlarda keçirilməsinin çox önəmli və vacib bir ənənə olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi enerji, infrastruktur layihələrinin əhəmiyyəti vurğulandı. Bu xüsusda ölkələrimizin birlikdə reallaşdırdıqları enerji layihələrinin Avropanın enerji təhlükəsizliyində böyük rol oynadığı və bu enerji resurslarına tələbatın artdığı qeyd olundu. Həmçinin yol-infrastruktur layihələrinin həyata keçirilməsinin önəmi vurğulandı və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin genişləndirilməsi, onun imkanlarının artırılması istiqamətində birgə aparılan fəaliyyət xüsusi vurğulandı. Azərbaycanın və Gürcüstanın Orta Dəhlizdə önəmli rolu, bu xüsusda birgə səylərin göstərilməsinin vacibliyi qeyd olundu.

Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığı və bu istiqamətdə əlavə tədbirlərin görüldüyü bildirildi, Azərbaycanın SOCAR şirkətinin Gürcüstanda uğurlu fəaliyyəti xüsusi vurğulandı. Söhbət zamanı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin əhəmiyyəti, həmçinin Qara dənizin dibi ilə kabelin çəkilməsinin, bu xüsusda Azərbaycanın və Gürcüstanın digər tərəfdaşlarla işbirliyinin önəmi qeyd edildi.

Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili Azərbaycan ilə Gürcüstan arasında humanitar, mədəniyyət, təhsil, müdafiə sənayesi, hərbi, təhlükəsizlik, kənd təsərrüfatı və digər sahələrdə də əməkdaşlıq məsələlərini müzakirə etdilər. Gürcüstanın Baş naziri bu il Azərbaycanda Ulu Öndər Heydər Əliyevin 100 illiyinin qeyd olunduğunu vurğuladı, Ümummilli Liderin əziz xatirəsinin gürcü xalqı tərəfindən də böyük hörmət və ehtiramla anıldığını bildirərək, Ulu Öndərin Gürcüstanın və gürcü xalqının böyük dostu olduğunu qeyd etdi.

Ardı Səh. 3

# Azərbaycan-Gürcüstan: Möhkəm dostlar, etibarlı tərəfdaşlar!







Əvvəli-Səh-2

### AZƏRBAYCAN PREZİDENTİ: "Mən Gürcüstanda olarkən Mçxeta rayonunda olmuşdum. Bu gün Siz Qəbələ rayonundasınız. Hesab edirəm ki, bu, çox yaxşı bir ənənədir"

Prezident İlham Əliyev aprelin 7-də Qəbələdə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatında söyləyib: "Mən Gürcüstanda olarkən Mçxeta rayonunda olmuşdum. Bu gün Siz Qəbələ rayonundasınız. Hesab edirəm ki, bu, çox yaxşı bir ənənədir. Çünki beləliklə biz həm Gürcüstanın, həm də Azərbaycanın maraqlı tarixi yerləri ilə də tanış oluruq və bu, bizim dostluğumuzu daha da gücləndirir".

Dövlətimizin başçısı Gürcüstanın Baş nazirinin bu səfəri zamanı aparılacaq müzakirələrin önəmini vurğuladı. Azərbaycan Prezidenti bu səfərlər çərçivəsində görüşlərin məhz regionlarda keçirilməsinin çox önəmli və vacib bir ənənə olduğunu bildirdi: "Gürcüstan və Azərbaycan uzun illər bir-biri ilə sıx əlaqədədir. Biz dostuq, müttəfiqik, xalqlarımızı qardaşlıq əlaqələri bağlayır". Dövlətimizin başçısı onu da vurğulayıb ki, bütün müzakirə olunan məsələlər ikitərəfli əməkdaşlığı dərinləşdirəcək: "Bütün müzakirə olunan məsələlər bir məqsədi güdür ki, ikitərəfli əməkdaşlığı dərinləşdirək və xalqlarımızın gələcəyi üçün lazım olan bütün addımları ataq. Bu gün bir çox önəmli məsələlər müzakirə edilmişdir və əldə olunmuş razılaşmalar əsasında biz gələcək fəaliyyətimizi də quracağıq".

### PREZİDENT İLHAM ƏLİYEV: "Gürcüstan və Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir"

Azərbaycan Prezidenti Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatında Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi enerji, infrastruktur layihələrinin əhəmiyyətini vurğulayıb. Bu xüsusda ölkələrimizin birlikdə reallaşdırdıqları enerji layihələrinin Avropanın enerji təhlükəsizliyində böyük rol oynadığı və bu enerji resurslarına tələbatın artdığı qeyd edib: "Gürcüstan və Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir».

Bu rolun getdikcə artdığını vurğulayan dövlətimizin başçısı deyib: «Əlbəttə ki, bizim aramızda olan dostluq əlaqələri və bu sahədə əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi üçün də böyük töhfədir. İldən-ilə Azərbaycan təbii qazının Avropa istiqamətinə ixracı artmaqdadır. Bütövlükdə bu il Azərbaycan dünya bazarlarına 24,5 milyard kubmetr qaz ixrac edəcək və bu rəqəm ildən-ilə artır".

Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatında həmçinin yol-infrastruktur layihələrinin həyata keçirilməsinin önəmini vurğuladı və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin genişləndirilməsi, onun imkanlarının artırılması istiqamətində birgə aparılan fəaliyyət xüsusi vurğulandı. Azərbaycanın və Gürcüstanın Orta Dəhlizdə önəmli rolu, bu xüsusda birgə səylərin göstərilməsinin vacibliyini qeyd etdi: "Təbii ki, ikitərəfli əlaqələrimizin önəmli hissəsi nəqliyyatla bağlıdır. Burada da bütün işlər uğurla gedir, plan üzrə gedir".

"Orta Dəhlizin həyata keçirilməsində Gürcüstan və Azərbaycan uğurla fəaliyyət göstərir. Əlbəttə ki, növbəti mərhələdə yükdaşımaların həcminin artırılması istiqamətində əlavə addımlar atılacaq", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Keçən il və bu il Mərkəzi Asiya ölkələrinə dəfələrlə səfərlər etdiyini və hələ səfərlər edəcəyini vurğulayan Prezident İlham Əliyev bildirib: "Yeni yüklərin Orta Dəhliz üzrə nəql edilməsi üçün çox gözəl imkanlar var. Burada həm bütün inzibati məsələlər öz həllini tapmalıdır, tarif siyasəti vahid prizmadan həll edilməlidir, eyni zamanda, yüklərin cəlb edilməsi və nəqli üçün birgə səylər atılmalıdır. Təbii ki, bu gün bu məsələ də geniş müzakirə olunub və olunacaq".

### PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycanın şirkəti SOCAR Gürcüstanda uğurla fəaliyyət göstərir"

Azərbaycan Prezidenti mətbuata bəyanatında bildirib ki, keçən il Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, biz 2027-ci ilə qədər təkcə Avropa məkanına 20 milyard kubmetr qazın nəql olunmasını təmin etməliyik və əminəm ki, biz bu rəqəmə çatacağıq: "İndiki geosiyasi vəziyyəti nəzərə alaraq, əlbəttə ki, enerji təhlükəsizliyi məsələləri bütün ölkələr üçün ön plana çıxır. Uzun illər Azərbaycanın şirkəti SOCAR Gürcüstanda uğurla fəaliyyət göstərir. Mənə dünən verilən məlumata görə, SOCAR Gürcüstanda 11 min kilometr uzunluğunda qaz xətləri çəkmişdir və beləliklə, 830 mindən çox abonentə təbii qazı təmin edir".

### PREZİDENT İLHAM ƏLİYEV: "Gürcüstan Baş nazirinin bugünkü səfəri əlaqələrimizə yeni təkan verəcək"

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 7-də Qəbələdə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatında bildirib ki, Gürcüstan-Azərbaycan əlaqələri bir çox sahələri - müdafiə sənayesi, təhsil, mədəniyyət, turizm, texnologiyalar, kənd təsərrüfatı sahələrini əhatə edir: "Əlbəttə ki, ticarət dövriyyəsinin artırılması üçün lazımi addımlar atılır. Əminəm ki, cənab Baş nazirin bugünkü səfəri bizim əlaqələrimizə yeni təkan verəcəkdir".

### İRAKLİ QARİBAŞVİLİ: "Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, həm də mühüm strateji tərəfdaşımızdır"

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələdə Azərbaycan Prezidenti İlham Əliyevlə birgə mətbuata bəyanatında söyləyib ki, bizim dostluğumuzun uzunəsrlik tarixi var: "Azərbaycan bizim təkcə qonşumuz və dostumuz deyil, həm də mühüm strateji tərəfdaşımızdır".

Baş nazir qeyd edib: "Uzun illər ərzində biz müxtəlif sahələrdə tarixi layihələr həyata keçirmişik. Həmin layihələr xalqlarımızı, ölkələrimizi daha sıx birləşdirdi. Biz yaxşı mənada bir-birimizdən asılıyıq və əminəm ki, bundan sonrakı uzun illər boyu da belə olacaq". Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələdə Azərbaycan Prezidenti İlham Əliyevlə birgə mətbuata bəyanatında söyləyib ki, Gürcüstan etibarlı tranzit ölkəsi, tranzit tərəfdaşıdır.

Dünən Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ regional "ASAN xidmət" mərkəzində olublar. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəzin fəaliyyəti ilə bağlı məlumat verib.

Prezident İlham Əliyevin iştirakı ilə 2016-cı il avqustun 10-da açılışı olan Mərkəz müvafiq sahələr üzrə qeydiyyat məhdudiyyəti olmadan vətəndaşlara xidmət göstərir. Yeddi illik fəaliyyəti dövründə regional mərkəzə ümumilikdə bir milyona yaxın vətəndaş müraciəti daxil olub. Eyni zamanda, səyyar "ASAN xidmət" avtobusu vasitəsilə 220 mindən çox vətəndaş müraciəti qəbul edilib. Burada gündəlik orta müraciət sayı 1000-ə yaxındır. Sonda Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə "ABAD-çı ailə" tərəfindən hazırlanmış əl sənətkarlığı məhsulu hədiyyə olunub. Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ Qida Şəhərciyində də olublar. Qəbələ Qida Şəhərciyinin baş direktoru Fuad Babayev Azərbaycan Prezidentinə və Gürcüstanın Baş nazirinə məlumat verdi.

Prezident İlham Əliyev qeyd etdiyi kimi, biz bu fəaliyyətimizi davam edirik, biz dincəlmirik. Biz Qara dənizin dibi ilə elektrik kabeli aparacağıq, Orta Dəhliz layihəsini inkişaf etdiririk, yaşıl enerjini Avropaya nəql etmək üçün ölkələrimizin nəhəng potensialı var. Hər iki ölkə bu sahəyə daha çox sərmayə qoyacaq.

**RƏFİQƏ HÜYSEYNOVA**

# Milli Məclisin plenar iclası keçirilib, 20 məsələ müzakirə olunub

***Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. Milli Məclisin sədri gündəliyə 20 məsələnin daxil edildiyini bildirib. Qeyd edilib ki, gündəliyin birinci məsələsi Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı barədədir.***

Sahibə Qafarova diqqətə çatdırıb ki, aprelin 5-də İran parlamentində Azərbaycana qarşı qərəzli siyasi aksiya təşkil olunub, saxta və uydurma ittihamlar üzərində qurulan bir bəyanat qəbul edilib. Təəssüf ki, Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamış, xalqımızın əsrlər boyu yaratdığı sərvətləri vəhşicəsinə talan etmiş Ermənistana bir dəfə də etirazını bildirməyən, hətta ona müxtəlif vasitələrlə dəstək verən İran bu gün Azərbaycanın İsraildə səfirliyinin açılmasından narahatdır.

"Biz İran parlamenti tərəfindən ölkəmizə qarşı irəli sürülmüş əsassız ittihamları qətiyyətlə rədd edirik", - deyən S.Qafarova İran parlamentini Azərbaycana qarşı bu cür təxribatlara son qoymağa və ikitərəfli münasibətlərə xələl gətirə bilən hərəkətlərdən çəkinməyə çağırıb. Məsələ ətrafında müzakirələrdə Milli Məclis sədrinin müavini Fəzail İbrahimli, komitə sədrləri Bəxtiyar Əliyev, Zahid Oruc, Musa Quliyev, Səməd Seyidov, deputatlar Azər Badamov, Nizami Cəfərov, Anar İsgəndərov, Etibar Əliyev, Elşən Musayev, Vüqar İskəndərov, Sabir Rüstəmxanlı, Hikmət Məmmədov, Fəzail Ağamalı çıxış ediblər.

İclasda məsələ ilə bağlı Bəyanatın mətnini hazırlamaq üçün Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimlinin başçılığı ilə parlament komissiyası yaradılıb və komissiya öz işinə başlayıb.

Çıxış edən deputatlar İranın ölkəmizə qarşı təxribatçı və düşmənçilik hərəkətlərinin davamlı şəkil almasının qonşuluq münasibətlərinə sarsıdıcı zərbə vurduğunu, deputat Fazil Mustafaya qarşı terror aktı törədənlərin İranla əlaqələrinin, bundan bir az əvvəl Tehrandakı səfirliyimizə xain hücumun, İran rəsmilərinin ölkəmizə qarşı söylədikləri arasıkəsilməz hədyanların, İranın ölkəmizin Ermənistanla münaqişənin həllində, xüsusilə Zəngəzur dəhlizi barəsində tutduğu destruktiv mövqeyinin bizi dövlətlərarası münasibətlərimizə yenidən baxmağa məcbur etdiyini bildiriblər. Onlar İran parlamentinin Azərbaycanın İsraildə səfirlik açmasına etiraz bəyanatı qəbul etməsinin və özünü dünya müsəlmanlarının hüquqlarının qoruyucusu elan etməsinin isə heç bir siyasi və diplomatik etikaya sığmadığını söyləyiblər.

Vurğulanıb ki, hər hansı bir dövlətdə, o cümlədən İsraildə səfirlik açmaq Azərbaycan dövlətinin hüququdur. İran parlamentinin bu məsələni müzakirə etməyə beynəlxalq hüquq və mənəvi baxımından haqqı yoxdur. Bildirilib ki, İran parlamentinin İsrail Dövlətində səfirliyimizin açılmasına etiraz edən qətnamə qəbul etməsi daxili işlərimizə qarışmaq cəhdidir və bu, Azərbaycan xalqı tərəfindən qətiyyətlə rədd edilir və pislənilir. Müzakirələrin sonunda deputat Kamran Bayramov İran parlamentinin İsraildə Azərbaycan səfirliyinin açılmasını pisləyən bəyanatı ilə bağlı bəyanatın mətnini diqqətə çatdırıb. Sənəd səsə qoyularaq qəbul edilib.

Sonra gündəlikdəki qanun layihələrini müzakirəyə çıxaran parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, növbəti dörd məsələ ikinci oxunuşda olan qanun layihələridir. Bildirilib ki, gündəliyin ikinci məsələsi "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə ikinci oxunuşda olan qanun layihəsidir. Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunduğunu qeyd edən parlamentin sədri belə bir mühüm tarixi məqamda Ulu Öndərin yubileyinə həsr olunan medalın təsis edilməsini onun Azərbaycan xalqı və dövləti qarşısında müstəsna xidmətlərinə verilən qiymətin yeni bir ifadəsi kimi dəyərləndirib.



Məsələ ilə bağlı məlumat verən Milli Məclis sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanun layihəsinin birinci oxunuşunda deputatların Prezidentin "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalının təsis edilməsi təşəbbüsünü alqışlarla qarşıladıqlarını, Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsinə dəyərli bir töhfə kimi yüksək qiymətləndirdiklərini bildirib. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Sahibə Qafarova deyib ki, gündəliyin növbəti iki məsələsi parlamentə Prezidentin bir məktubu ilə daxil olub və mahiyyətcə də bir-biri ilə bağlıdır. Bunlar ikinci oxunuşda olan "Prokurorluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə və "Dövlət qulluğu haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələridir.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun tabelik qaydasının dəyişdirilməklə yenidən təşkil olunması ilə əlaqədar hazırlanan qanun layihələri barədə birinci oxunuşda ətraflı məlumat verildiyini bildirib və məsələlərlə bağlı komitəyə hər hansı bir təklif daxil olmadığı üçün layihələrin olduğu kimi səsə qoyulmasını xahiş edib. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin sədri gündəliyin beşinci məsələsi olan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) müzakirəyə çıxarıb. Qanun layihəsi barədə məlumat verən parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc sənədin birinci oxunuşunda deputatlar tərəfindən səsləndirilən fikirlərə münasibət bildirib, qaldırılan məsələlərə aydınlıq gətirib. Qanun layihəsinin müzakirəsində komitə sədri Siyavuş Novruzovun, deputatlar Vüqar Bayramovun, Nigar Arpadarainin, Fəzail Ağamalının çıxışlarından sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin sədri bildirib ki, gündəliyin qalan 15 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Növbəti dörd məsələ Prezidentin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə də bir-birinə yaxındır. Qeyd olunub ki, 9-cu məsələ ilə əlaqədar Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Aparatının rəhbəri Rəşad İsmayılov və Hüquq şöbəsinin müdiri Natiq Mehdiyev iclasda iştirak edirlər. Bildirilib ki, 6-cı və 7-ci məsələyə Regional məsələlər komitəsində baxılıb. Regional məsələlər komitəsi sədrinin müavini Elşən Musayev deyib ki, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) və "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) mahiyyətcə eynidir.

Belə ki, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən, bələdiyyənin ərazisində daimi yaşayan və eyni zamanda ən azı beş il müddətində yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları tikinti obyektinin istismara hazırlığı barədə müvafiq icra hakimiyyəti orqanından müsbət rəy aldığı təqdirdə, həmin obyektin yerləşdiyi torpaq sahəsi fiziki və hüquqi şəxslərin mülkiyyətinə satıla və ya icarəsinə verilə bilər. Həmin şəxslər torpaq üzərindəki mülkiyyət və icarə hüquqlarını əldə etmək üçün açıq torpaq hərracları və ya müsabiqələrdə iştirak etmirlər. Təklif olunan dəyişiklikdəki yeni qayda humanizm prinsipinə əsaslanır, tikinti obyektinin yerləşdiyi torpaq üzərində mülkiyyət və icarə hüquqlarının daha asan formada əldə olunmasına hüquqi əsas verir.

Elşən Musayev "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsinin də eyni məzmunlu uyğunlaşdırma xarakteri daşıdığını bildirib. 8-ci məsələ olan "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib.

Bildirilib ki, qanun layihəsi qanunvericiliyin tələblərinə uyğun aparılmamış tikinti obyektləri üzərində hüquqların qeydiyyatı məqsədilə hazırlanıb. Belə ki, yarımçıq qalmış obyektlərin tikintisi zamanı bürokratik əngəllərin aradan qaldırılması məqsədi ilə prosedur qaydaları sadələşdirilir. Bundan sonra tikintisi yarımçıq qalan obyektlərin işinin başa çatdırılmasına görə iki sənəd tələb olunacaq. Bunlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyənləşdirilmiş hallarda və qaydada tikinti obyektlərinə münasibətdə - tikinti obyektinin istismarına icazə və torpaq sahəsi üzərində mülkiyyət və ya icarə hüququnu təsdiq edən sənəddir.

Doqquzuncu məsələ olan "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov məlumat verib. Diqqətə çatdırılıb ki, təklif olunan dəyişikliklər 2023-cü il may ayının 1-dək Şəhərsalma və Tikinti Məcəlləsinin tələblərinə riayət edilmədən inşa edilən, lakin etibarlılıq və təhlükəsizlik baxımından müvafiq tələblərə cavab verən bir çox tikinti obyektlərinin istismarına icazə verilməsini və müvafiq şəxslərin mülkiyyət hüququnun rəsmiləşdirilməsini mümkün edəcək.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi ilə bağlı komitənin müsbət rəyini açıqlayandan sonra sənədlərin müzakirəsi aparılıb. Müzakirədə deputatlar Razi Nurullayev, Azay Quliyev, Müşfiq Cəfərov, Elşad Mirbəşir oğlu və Etibar Əliyev çıxış edərək sənədlərlə bağlı fikirlərini bildiriblər.

Sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib. S.Qafarova qeyd edib ki, növbəti altı məsələ də Prezidentin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə də bir-birinə yaxındır. Vurğulanıb ki, 10-cu, 11-ci və 12-ci məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili rəhbərlik etdiyi komitənin Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı müsbət rəyini diqqətə çatdırıb.

Gündəliyin 13-cü, 14-cü və 15-ci məsələləri - birinci oxunuşda olan "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında" və "Su təchizatı və tullantı suları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ilə bağlı Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verib. Diqqətə çatdırılıb ki, adıçəkilən qanunlara eyni mahiyyətli dəyişikliklərin edilməsi nəzərdə tutulub. Həmin qanunların müvafiq maddələrinə təklif olunan əlavələrə görə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilmiş və ya tikilməkdə olan, habelə barəsində məlumatlandırma icraatı tətbiq olunan, lakin tikinti işlərinin başlanmasına həmin Məcəllənin 80.4-cü maddəsində nəzərdə tutulmuş əsas olmadan inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə, onların qaz qurğularının qazpaylayıcı şəbəkəyə, habelə su təchizatı və kanalizasiya şəbəkələrinə qoşulması qadağandır.

Qanun layihələrinin müzakirəsində komitə sədri Zahid Oruc, deputatlar Emin Hacıyev, Musa Qasımlı, Qüdrət Həsənquliyev çıxış ediblər. Sonra bu altı qanun layihəsi də ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib. Daha sonra gündəlikdəki digər məsələlər barədə müzakirələr aparılıb.

***"Xüsusi qürur hissi ilə qeyd edə bilərik ki, "Bir millət iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri yoxdur". Bu fikir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyənin Zəfər Bayramı münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana göndərdiyi təbrik məktubunda yer almışdı.***



# Maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan qardaşlığı!

*İLHAM ƏLİYEV: "Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri yoxdur"*

Bəli, dövlət başçımızn dediyi kimi, Türkiyə-Azərbaycan sınaqlardan çıxmış qardaşlıq birliyi, ulu öndər Heydər Əliyevin söylədiyi "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir" və böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", - kəlamları yaşadığımız günlərdə bir daha tarixiləşdi, toplumun bütün kəsimləri tərəfindən bəyənilən, uşaqdan-böyüyə hər kəsin dilinin əzbəri olan, istər sosial şəbəkələrdə, istərsə də cəmiyyət həyatının hər hansı bir sahəsində ən çox işlədilən ifadəyə çevrildi.

## ŞAD GÜNDƏ DƏ, DAR GÜNDƏ DƏ HƏMRƏY OLAN QARDAŞLAR

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları tarixin ən dar məqamlarında, ən çətin günlərində belə öz sözünü deyir. Azərbaycan xalqı olaraq hər zaman qardaş Türkiyənin yanındadır və bundan sonra da olacaq. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. 44 günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi. Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi – İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".

Qardaş Türkiyədə istər yanğınlar, istərsə də fevralın 6-da baş verən zəlzələnin ilk günündən bu günə kimi, qardaş Türk xalqı kimi, Azərbaycan xalqı da böyük hüzün, kədər içində oldu. Azərbaycan Prezidenti İlham Əliyev fevralın 6-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırdı, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirdi. Azərbaycan Prezidenti onu da vurğuladı ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. Bu bir daha iki qardaş ölkənin liderlərinin həmrəyliyinin, «bir millət, iki dövlət» olduğunun nümayişi idi. Həmçinin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da sosial mediada paylaşım edərək Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladığını bildirdi. Faciə zamanı həlak olanlara rəhmət diləyən, onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verən, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayan Mehriban xanım Əliyeva "Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!", – deyə qardaş Türkiyəyə dəstəyini ifadə etdi.

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyədə baş verən dəhşətli zəlzələ ilə əlaqədar fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olması, başsağlığı verməsi əsl qardaşlıq nümunəsidir. Dövlət başçımızın da söylədiyi kimi, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdiririk və belə də olacaq!

Türkiyənin zəlzələ ilə əlaqədar dördüncü dərəcəli həyəcan elanından sonra beynəlxalq müstəvidə yardım təklifləri gələrkən tbii ki, yenə ilk köməyə gedən qardaş, dost olaq Azərbaycan oldu. Prezident İlham Əliyevin tapşırığına əsasən, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması üçün bütün tədbirlər görüldü. Dövlət başçısı bildirdi ki, əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik: "Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə".

## TÜRKİYƏ-AZƏRBAYCAN HƏMİŞƏ BİR YUMRUQDUR, BİR ÜRƏKDİR, BİR CANDIR

Bəli, dövlətimizin başçısı Türkiyənin Azərbaycandakı səfirliyində olarkən bildirdi ki, biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir.

"Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir»,-deyən dövlət başçımız söyləyib ki, hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır: "Yenə də deyirəm, həm Türkiyədən, həm Azərbaycandan, həm digər ölkələrdən gələn xilasedicilər çox böyük iş görürlər. Əlbəttə ki, burada əsas yük və mənəvi yük Türkiyə hökumətinin üzərinə düşür. Mənim qardaşım hörmətli Prezident dərhal bütün göstərişləri verdi, bütün nazirləri fəlakət zonalarına göndərmişdir və tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonra təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir".

## RƏCƏB TAYYİB ƏRDOĞAN: "44 günlük müharibədə də, bu gün də Azərbaycanla birgəyik"

Zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qazintep Hava Limanında Birinci vitse-rezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi əsasında qardaş ölkəyə humanitar yardım aparan Fond əməkdaşları ilə görüşüb. Baş vermiş faciə ilə əlaqədar Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın başsağlığını çatdıran Fondun nümayəndəsi Elvin Aslanov bu günlərdə bütün Azərbaycan xalqının, ölkənin bütün təşkilatlarının qardaş ölkə üçün zəruri yardımların göstərilməsi naminə səfərbər olduğunu bildirib.

Azərbaycan dövləti və xalqının Türkiyədəki faciə ətrafında səfərbər olmasına görə təşəkkürünü bildirən Rəcəb Tayyib Ərdoğan deyib: "İlham qardaşıma, Mehriban bacıma öz adımdan, millətim adımdan çox təşəkkür edirəm!".

Azərbaycanda xalqının zəlzələ qurbanları üçün humanitar yardıma qoşulmasından, göndəriləcək yardımlar barədə məlumatlı olduğunu deyən Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycanın yanında olduğu kimi, indi də belə çətin gündə Azərbaycanın Türkiyənin yanında olduğunu bildirib. "Öz adımdan, ailəm və xalqımız adından minnətdarlıqlarımı çatdırıram. Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq. Bir millət, iki dövlət olaraq yola davam edəcəyik!".

## BİR YERDƏYİK, BİRLİYİMİZ SARSILMAZ VƏ ƏBƏDİDİR

Bəli, bu gün Türkiyə və Azərbaycan liderlərinin qardaşlığı, iki dövlət bir yumruq həmrəyliyi birliyi, dar gündə, xoş gündə bir yerdə olması sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Bu sərhəd tanımayan qardaşlıq birliyidir. Və hər iki qardaş dövlətlərin liderləri və xalqə bir daha dünyaya nümayiş etdirdi ki, bu sarsılmaz qardaşlıq birliyi təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələrinin təsdiqidir və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar, onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur! Çünki Azərbaycan xalqı bu sarsılmaz birliyin qüdrətinə 44 günlük şanlı Vətən müharibəsində gördü və bütün dünya bir daha şahid oldu. Və qələbədən də sonra Türkiyə həmişə olduğu kimi, yenə də haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu. Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu.

Budur qardaş dayağı, budur çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Və Azərbaycan-Türkiyə bütün çətin anlarda xalqının birliyi ilə, iqtidarının səyi ilə həmişə qalib olacaq!!!

Çünki bu gün Güclənən bir Azərbaycan, Güclənən bir Türkiyə vardır! Və xalq şairi Bəxtiyar Vahabzadənin bu qardaşlıq birliyini ifadə etdiyi şeirində olduğu kimi:

*Bir ananın iki oğlu,*
*Bir amalın iki qolu.*
*O da ulu, bu da ulu, –*
*Azərbaycan – Türkiyə.*

**RƏFİQƏ KAMALQIZI**

# Söz, fikir, məlumat azadlığı və plüralizm dövlət siyasətinin başlıca prioritetlərindəndir

***Cəmiyyətdə demokratik mexanizmlərin mövcudluğunu, işləkliyini təsdiq edən əsas şərtlərindən biri və ən vacibi fikir, söz və məlumat azadlığı hesab olunur. Elə bu səbəbdən də söz, fikir və məlumat azadlığı sivil cəmiyyətin atributu sayılır və dövlətlərin, xalqların hərtərəfli inkişafında, cəmiyyətlərin formalaşmasında müstəsna rola malikdir. Bütün bunlar nəzərə alınaraq Azərbaycanda fikir, söz, məlumat azadlığına, azad mətbuatın inkişafına xüsusi diqqət ayrılıb və bu sahəyə göstərilən qayğı da cəmiyyətimizdə müsbət qarşılanır.***





Ölkəmizin, fikir azadlığı, söz azadlığı qorunan, məlumat azadlığına şərait yaradılan, azad mətbuatı olan ölkələr sırasında olması heç də təsadüfi deyil. Ona görə ki, sözsün əsl mənasında vətənimiz Azərbaycanda fikir, söz, məlumar azadlığı, azad mətbuat, plüralizm dinamik şəkildə inkişaf etməkdədir və bu inkişaf dinamikası ölkəmizdə demokratiyanın bundan sonra da, gələcəkdə də mövcudluğuna əsaslı zəmin yaradır. Azad şəkildə fəaliyyət göstərən televiziya və radioların, qəzet və jurnalların, informasiya agentliklərinin maneəsiz, senzurasız çalışması deyilənləri təsdiq edir və ölkəmizdə soz, fikir, məlumat azadlığının hansı səviyyədə olduğunu göstərir və bu da öz növbəsində cəmiyyətin inkişafından, onun vəziyyətindən, eləcə də mahiyyətindən xəbər verir.

Vətəndaşlar öz fikirlərini sərbəst şəkildə ifadə edə bilirlərsə, bu elə ifadə azadlığıdır




və ölkəmizdə bu azadlığın təmin olunduğu göz önündədir. Azərbaycanda sosial şəbəkələrin mövcudluğu, insanların həmin şəbəkələrdə öz fikirlərini azad şəkildə paylaşması ölkəmizdə söz, ifadə azadlığının olduğunu birmənalı şəkildə təsdiq edir. Cəmiyyətimizdə müşahidə edilən hadisələrə vətəndaşların öz münasibətini məhz sosial şəbəkələr vasitəsilə bildirdiyinin hər birimiz şahidiyik. Doğrudur, bəzən bundan sui istifadə halları da müşahidə edilən, hansı ki, sui istifadə halları yolverilməzdir, amma hər bir halda vətəndaşlarımızın öz fikirlərini, münasibətlərini bildirmələri üçün heç bir manеə yoxdur. Əlbəttə ki, burada etik normaların da nəzərə alınması başlıca şərtdir və belə hallar da qanunla tənzimlənir, çünki söz, fikir azadlığının təmin olunması heç də təhqir hallarına yol vermək, etik normaların nəzərə alınmaması demək deyil.

Müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan digər istiqamətlərdə olduğu kimi, demokratiya, söz, fikir azadlığı, plüralizm yönündə də sürətli inkişaf mərhələsinə qədəm qoyub və bu inkişaf hələ də davam etməkdədir. Fikir, söz azadlığı ilə yanaşı, ölkəmizdə siyasi plüralizmin olduğu da diqqəti cəlb edir. Məhz çoxpartiyalılıq sistemi mövcud olan siyasi plüralizmdən xəbər verir. Sevindirici haldır ki, siyasi plüralizm, çoxpartiyalılıq sistemi günü-gündən inkişaf edir. Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin müzakirəsi deyilənləri bir daha təsdiq edir və həmin sistemin inkişafda olduğunu isbatlayır.

Fikir, söz, məlumat azadlığı eyni zamanda cəmiyyətinin özünün inkişafı üçün başlıca şərtlərdən biridir. Çünki məhz fikir, ifadə, söz, məlumat azadlığı sayəsində insanlar öz ideyalarını paylaşa bilirlər. Sözsüz ki, həmin ideyalar arasında ən üstün olanlarının seçilməsi, praktik olaraq tətbiqi də məhz fikir, məlumat azadlığı sayəsində reallaşır. İnkişaf etmiş demokratik ölkələrdə olduğu kimi, Azərbaycanda da reallaşdırılan uğurlu layihələrin bir çoxu məhz kreativ ideyalarla ortaya çıxmış olur. Əvvəla, belə kreativ ideyalar, onların sayəsində reallaşan layihələr cəmiyyətin inkişafı üçün əsaslı zəmin yaradır. Digər tərəfdən də həmin kreativ ideyalarla üzə çıxan layihələr məhz cəmiyyət üçün də məqbul, qənaətbəxş sayılır. Çünki həmin ideyalar və layihələr məhz cəmiyyətin özü tərəfindən irəli sürülmüş olur.

Xatırlatmaq yerinə düşərdi ki, hərhansı ölkənin demokratik inkişaf səviyyəsini müəyyənləşdirməyə imkan verən fikir, söz və məlumat azadlığı ilk növbədə kütləvi informasiya vasitələrinin və bütövlükdə müasir informasiya cəmiyyətinin söykəndiyi əsas dəyərlər, eləcə də məqsədlərdəndir. Elə buna görə də cəsarətlə deyə bilərik ki, cəmiyyətin əsas azadlıqları, xüsusən də, fikir, söz və məlumat azadlıqları məhz elə mətbuatdan başlayır. Əvvəla ona görə ki, hərhansı dövrün gerçək təsvirini daha dolğun və peşəkar şəkildə məhz mətbuat verir. Təsadüfi deyil ki, mətbuat cəmiyyətin bütün həqiqətlərini özündə əks etdirən, cəmiyyəti necə var eləcə, yəni olduğu kimi təsvir edən bir güzgü hesab olunur. Sözsüz ki, bu güzgünün də şəffaflığı məhz mətbuatın tərəfsiz olaraq cəmiyyətə xidmət etməsindən, fikir, söz, məlumat azadlığına yer və dəyər verməsindən asılıdır. Deməli, mətbuatımızın inkişafı məhz ölkəmizdə demokratiyanın daha da inkişafı deməkdir ki, biz bunun da əyani şahidiyik.

"Əkinçi" qəzeti ilə əsası qoyulan və çətin, eləcə də keşməkeşli yollar keçən milli mətbuatımızın zəngin tarixi keçmişi var. Lakin müasir milli mətbuatımızın, azad medianın inkişafı, ümumiyyətlə, ölkəmizdə söz və mətbuat azadlığının bərpa olunması məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ona görə ki, onilliklər boyu təsir, senzura və təzyiq altında fəaliyyət göstərən milli mətbuatımız məhz müstəqilliyimiz bərpa edildikdən, Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra müstəqil, azad şəkildə yeni mərhələyə qədəm qoyub, azad mətbuat olaraq istiqamətini müəyyənləşdirib və mətbuat azadlığının təmin edilməsində Ulu Öndər Heydər Əliyevin tarixi rolu, xidmətləri danılmazdır. Çünki məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi və göstərişi ilə Azərbaycanda azad medianın inkişafı ilə bağlı çox önəmli qərarlar qəbul edilib, azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlər, maneələr aradan qaldırılıb, senzura yığışdırılıb, müasir dünya standartlarına uyğunlaşdırılıb, maddi-texniki bazası möhkəmləndirilib və çoxsaylı müxtəlif güzəştlər tətbiq edilib. "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman 1998-ci ildə məhz Ulu Öndər tərəfindən imzalanıb, bununla da senzura birdəfəlik ləğv olunub və bütün bunlar dahi rəhbərin söz, fikir, ifadə, məlumat azadlığına, plüralizmə önəm verdiyini isbatlayır.

Ulu Öndərin söz və mətbuat azadlığının bərqərar olması istiqamətində ölkəmizdə başlatdığı işlər cənab Prezident İlham Əliyev tərəfindən hal-hazırda uğurla davam etdirilməkdədir. Fikir, ifadə, məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi dövlət rəhbərinin daim diqqət mərkəzindədir və bu, cəmiyyətimiz, ələlxüsus da media nümayəndələri tərəfindən yüksək qiymətləndirilir. "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin keçirdiyi sorğu əsasında cənab Prezident İlham Əliyevin "Jurnalistlərin dostu" mükafatına layiq görülməsi bu baxımdan heç də təsadüfi deyil. Bu həm də mətbuatın inkişafına ölkə rəhbərinin göstərdiyi diqqət və qayğıya media ictimaiyyətinin baxışı və verdiyi dəyərin göstəricisidir. Bütün bunlar onu deməyə əsas verir ki, sözün həqiqi mənasında mətbuatın inkişafı, söz, ifadə, məlumat azadlığı, plüralizm dövlət siyasətinin başlıca prioritetlərindəndir.

***İnam Hacıyev***

# Diplomatların "Məkkəsi"



## *Çin sürətlə geosiyasi çəki qazanır*

***Dünya siyasət burulğanında çapalayır, söz sahibi olan, dünyaya ağalıq eşqinə düşən iri dövlətlər bir-biri ilə didişərkən bunu necə sonuclandıracaqlarını heç düşünməyiblər. Rusiya-ABŞ, NATO-Rusiya, Şərq-Qərb, Şimal-Cənub, Avropa-Asiya, okeanın o tayı ilə bu tayı münaqişə həddindədirlər. Dünyanın ikiyə, yaxud üçə bölünmüş qütbünü bir masa ətrafında oturdacaq bir qüvvə də ortada yoxdur.***

BMT-nin beynəlxalq qurum kimi fəaliyyəti, təsir imkanları sıfır həddindədir. Bu gün beynəlxalq münasibətlərdə qəbul edilmiş qanun və qaydalar yox, güc önəmli rol oynayır. Kimin gücü varsa yaşamaq ümidi əldə edir, kimdə ki, bu yoxdur, onunku bir Allaha qalıb. Dünyanın nizamı-tərəzisi pozulub da deyə bilərik. Buna baxmayaraq vəziyyətin bu həddə gələcəyini hesablamaq imkanı olmayan iri dövlətlər sanki yuxudan ayılıblar, indi də danışıqlar üçün vasitəçi axtarışındadırlar.





Diqqət Rusiya-Qərb savaşında hələlik neytrallığını qoruya bilən Çinin üzərinə dikilib. Son vaxtlar həm Rusiya, həm Avropa ölkələri, həm Yaxın Şərq, həm də digər ölkələr Pekini ümid yeri bilib bura üz tuturlar. Bir sözlə, prezidentlər, beynəlxalq təşkilatların rəhbərləri, diplomat və siyasətçilər Pekini Məkkəyə çeviriblər. Bu şəhəri ziyarət edən zəvvarların – dövlət rəsmilərinin sayı hər gün artmaqdadır

Səudiyyə Ərəbistanı və İranın xarici işlər nazirləri Feysəl bin Fərhan və Hüseyn Əmir Abdullahianın ölkələr arasında diplomatik münasibətlərin bərpasına dair razılıq əldə etdikdən sonra ilk görüşü cümə axşamı Pekində baş tutub. Beləliklə, Ər-Riyad və Tehran danışıqlar üçün neytral platforma seçməklə yanaşı, onların barışmasında həlledici rol oynayan Çinə də xərac verdilər. Maraqlıdır ki, cümə axşamı Pekin dünya diplomatiyasının əsas mərkəzlərindən birinə çevrilib. Burada İran və Səudiyyə Ərəbistanı nümayəndə heyətləri ilə yanaşı, Fransa prezidenti Emmanuel Makron və Avropa Komissiyasının sədri Ursula fon der Leyen də qonaq olublar.

İran və Səudiyyə Ərəbistanının xarici işlər nazirləri Feysəl bin Fərhan və Hüseyn Əmir-Abdollahian çinli həmkarları Qin Qana vasitəçilik səylərinə görə minnətdarlıqlarını bildiriblər. Cümə axşamı baş tutan görüşdə iki ölkənin nümayəndə heyətləri 2016-cı ildə kəsilmiş diplomatik münasibətləri bərpa etmək barədə razılığa gəliblər. Bu illər ərzində ilk növbədə Oman və İraq kimi regional oyunçular tərəfindən Ər-Riyad və Tehranı barışdırmaq üçün çoxlu cəhdlər edilib. Lakin martın 10-da Pekində keçirilən danışıqlarda buna son qoyuldu.

O vaxtdan bəri Səudiyyə və İran nazirləri bir neçə dəfə telefonla danışıblar və Səudiyyə kralı Salman bin Əbdüləziz Əl Səud İran prezidenti İbrahim Rəisi Ər-Riyada səfərə dəvət edib. Dəvətin qəbul edildiyi məlum olub. Səfərin tarixi hələlik məlum deyil, lakin iki ölkənin xarici işlər nazirlərinin görüşü bu hadisənin uzaqda olmadığını göstərir.

Pekində nazirlərin danışıqlarının yekunu üzrə imzalanmış birgə bəyanatda bir ay əvvəl nümayəndə heyətlərinin əldə etdiyi bütün razılaşmalar, o cümlədən iki köhnə sazişin - 2001-ci ilin aprelində təhlükəsizlik sahəsində əməkdaşlıq və iqtisadiyyat sahəsində əməkdaşlıq haqqında sazişin aktivləşdirilməsi təsdiqlənib. Bundan əlavə, tərəflər Ər-Riyad və Tehranda səfirliklərin, Ciddə və Məşhəddə baş konsulluqların açılması, həmçinin iki ölkə arasında uçuşların bərpası üzərində işləmək niyyətindədirlər. Həmçinin rəsmi nümayəndə heyətlərinin və biznes nümayəndələrinin qarşılıqlı səfərləri gözlənilir. Belə ki, həftənin əvvəlində məlum olub ki, İran və Səudiyyə Ərəbistanı birgə ticarət palatasının yaradılması imkanlarını öyrənirlər. Tərəflər həmçinin regionda təhlükəsizlik və sabitliyin təmin edilməsinə töhfə verən hər bir sahədə əməkdaşlığı gücləndirmək barədə razılığa gəliblər. Və deməliyəm ki, bunlar boş sözlər deyil - Yaxın Şərq qonşu ölkələrdə gərginliyi azaltmaq üçün Tehranla Ər-Riyadın yaxınlaşmasını çox gözləyir. İlk növbədə Livan və Suriyada.

Səudiyyə Ərəbistanının "Əl-Şərq əl-Avsat" qəzetinin qeyd etdiyi kimi, "iki nazir üçün görüş yeri kimi Pekinin seçilməsi onun bu ölkələr arasında razılığın əldə olunmasında və onlar arasında qarşılıqlı əlaqənin asanlaşdırılmasındakı rolu ilə bağlıdır". Beləliklə, indi çox az adam xarici işlər nazirlərinin Pekinə gəlişinə təəccüblənib. Amma bir ay əvvəl Çinin İran-Səudiyyə danışıqlarında iştirakı sensasiyaya çevrildi. Bu, Pekinin Ukrayna ilə bağlı sülh planının irəli sürülməsi ilə üst-üstə düşdü, bundan sonra Çinin qlobal geosiyasi arenada aparıcı oyunçulardan birinə çevrilmək istəyi və eyni zamanda qabiliyyəti özünü büruzə verdi. Bu, Qərbə də təsirsiz ötüşməyib.

Çin avropalı siyasətçilərin də ziyarət yerinə çevrilib. Mart ayında İspaniyanın baş naziri Pedro Sançes Pekinə səfər edib. Çin prezidenti Si Tsinpinlə görüşdə o, Rusiya-Ukrayna münaqişəsinə tezliklə son qoymağa və Ukrayna prezidenti Vladimir Zelenski ilə danışıqlara çağırıb. Eyni məqsədlə Fransa prezidenti Emmanuel Makron və Avropa Komissiyasının sədri Ursula fon der Leyen çərşənbə günü Pekinə uçub. "Rusiyanın Ukraynaya təcavüzü beynəlxalq sabitliyə zərbə vurdu. Mən bilirəm ki, Rusiyanı ağıla qaytarmaq və hər iki tərəfi danışıqlar masasına oturtmaq üçün sizə arxalana bilərəm", – cənab Makron cümə axşamı Çin lideri ilə danışıqlarda deyib.

Xanım fon der Leyen hətta səfər ərəfəsində Çinin Ukrayna münaqişəsi kontekstində atacağı addımların ölkənin Avropa İttifaqı ilə gələcək münasibətlərini müəyyən edəcəyini vurğulamışdı. Aİ diplomatiyasının rəhbəri Josep Borrell jurnalistlərə gələn həftə Pekinə səfər edəcəyini deyib: "Biz BMT Təhlükəsizlik Şurasının daimi üzvünün qaydalara əsaslanan dünya nizamını müdafiə etməsini gözləyirik. Bu isə Çinin ədalətli dünyanı təbliğ etmək üçün mənəvi borcudur".

Bu bəyanatlara şəxsən Çin prezidenti Si Cinpin prezident Makron və Ursula fon der Leyenlə görüşündə cavab verib. "Çin ardıcıl olaraq Aİ-ni çoxqütblü dünyanın müstəqil qütbü kimi qəbul edir və Aİ-ni strateji müstəqilliyini həyata keçirməkdə dəstəkləyir", - Çin lideri bildirib. Onun sözlərinə görə, Pekin təkid edir ki, "Çin və Aİ arasında münasibətlər üçüncü tərəflərə yönəlməməli (yəni Rusiyaya qarşı), üçüncü şəxslərdən (ABŞ) asılı olmamalıdır və nəzarət altında olmamalıdır.

Eyni zamanda, Si Cinpin deyib ki, o, "Ukrayna böhranının ərzaq, enerji, maliyyə, nəqliyyat və digər sahələrdə yan təsirlərini idarə etmək, habelə Ukrayna böhranının dövlətə mənfi təsirini azaltmaq üçün Fransa ilə işləməyə hazırdır.

Belə, dünya gücləri istəsələr də, istəməsələr də Çini özlərinə ağsaqqal hesab edirlər. İqtisadi cəhətdən dünya liderliyinə yüksələn Pekin bu gün həm də siyasətdə söz sahibidir.

**V.VƏLİYEV**

BAXIŞ BUCAĞI

# İsrail Azərbaycanın dünya səviyyəsində ən etibarlı dostu və müttəfidir



Dr. Mirsamir Məmmədov
İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Azərbaycan Respublikasındakı Regional Nümayəndəliyinin direktoru

Aprelin 7-si Azərbaycanla İsrail arasında hökumətlər səviyyəsində Diplomatik əlaqələrin qurulduğu gündür. İsrail dövləti qurulduğu gündən bu günümüzə qədər bütün türkdilli xalqlara dost və qardaş münasibəti göstərib. Yəhudi xalqı ilə Türk xalqlarının minillərə söykənən tarixi dostluğu vardır. Və təsadüfi deyil ki 1991-ci ildə Azərbaycan müstəqillik qazanan zaman İsrail Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən olmuşdur.

1991-ci ilin dekabrın 25-də İsrail Azərbaycanın müstəqilliyini tanıyıb. 1992-ci ilin fevralında Azərbaycanın müstəqilliyinin BMT TŞ-da müzakirəyə çıxarıldığı zaman BMT TŞ-nın sədri İsrail idi və məhz İsrailin və Yəhudi lobbisinin dəstəyi nəticəsində BMT TŞ-da Azərbaycanın müstəqilliyi müzakirəyə çıxarılır. BMT-də müstəqilliyimizin tanınmasına ilk səs verən ölkə də məhz İsrail olub. İsraildən sonra isə Təhlükəsizlik Şurasının 5 daimi üzvləri olan ABŞ daha sonra isə İngiltərə Fransa və Çin-in ardından Rusiya Azərbaycanın lehinə səs vermişdir və beləliklə Azərbaycan suveren və müstəqil ölkə olaraq tanınaraq BMT-yə daxil olmuşdur.



Həmin vaxtdan İsraillə Azərbaycanın diplomatik münasibətləri sürətlə inkişaf etməyə başladı. 1992-ci ilin aprelin 7-də isə hökumətlərarası Diplomatik əlaqələr quruldu. 1993-cü ilin avqustunda isə İsrailin Azərbaycanda səfirliyi açılıb.

Bu 30 il vaxt ərzində İsraillə Azərbaycanın diplomatik münasibətləri dostluq qardaşlıq və müttəfiqlik səviyyəsinə yüksəldi. Əlbəttə ki bu münasibətlərin dərinləşməsində Azərbaycandakı Yəhudi icmalarının Azərbaycandan İsrailə köçən Yəhudilərin böyük rolu olmuşdur. Azərbaycandan İsrailə köçən Yəhudilər öz vətənləri Azərbaycanla İsrail dövləti arasında yaxşı münasibətlərin qurulması üçün əllərindən gələni ediblər. Birinci və ikinci Qarabağ müharibəsində də Yəhudilər Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda gedən döyüşlərdə könüllü iştirak ediblər. Onlardan Milli Qəhrəman Albert Aqarunov və bir neçəsi şəhid olmuşdur.

Birinci Qarabağ müharibəsi zamanı İsrail Azərbaycana əlindən gələn dəstəyi göstərmişdir. Həmçinin 2016-cı ilin Aprel döyüşləri zamanı da 2020-ci ilin 44 günlük ikinci Qarabağ müharibəsi zamanı da İsrail dövlətinin Yəhudi lobbisinin və dünya Yəhudilərinin Azərbaycana misilsiz dəstəyi oldu. Bu gün İsrail dövləti Azərbaycanın ən etibarlı hərbi və strateji müttəfiqidir. Azərbaycanın müdafiə sahəsindəki tələbatının çox hissəsini İsrail təmin edir. Bu gün İsrail Azərbaycanın əsas silah və hərbi texnika təminatçısıdır. Münasibətlər təkcə hərbi sahədə deyil təhlükəsizlik iqtisadi tibbi və mədəni sahələrdə də İsraillə çox əhəmiyyətli əməkdaşlıq mövcuddur. İsraillə diplomatik münasibətlər və müttəfiqlik təkcə hökumətlərarası deyil. Azərbaycan xalqı ilə Yəhudi xalqı arasında hələ min illərə söykənən dərin dostluq və qardaşlıq münasibətləri mövcuddur. Hər iki xalq arasında əsrlər öncəyə gedib çıxan dərin mədəni əlaqələr mövcuddur.

Yəhudilərin Qafqazda və Azərbaycanda yaşadığı 2600-2700 illik qədim bir dövr ərzində Azərbaycan xalqı ilə dostluq və qardaşlıq ənənəsi mövcud olmuşdur. Yəhudilər bu günümüzə qədər hər zaman bütün tarix boyu Azərbaycana sadiqlik göstəriblər. Dünyanın hər yerində Azərbaycançılığı təbliğ ediblər. Azərbaycanın milli maraqlarına hər zaman son dərəcə sadiq olublar. Bu gün İsrail dövləti və dünya Yəhudiləri Azərbaycanın ən etibarlı dostu və müttəfiqidir. Beynəlxalq Yəhudi təşkilatları da öz çıxışlarında və bəyanatlarında bunu dəfələrlə bəyan edərək daim Azərbaycan dövlətinə və xalqına xeyir-dua arzu ediblər.

## TÜRK POLİTOLOQ: "Sülh və barışın olması istiqamətində ciddi addımlar atılmalıdır"



"Rusiya-Ukrayna müharibəsi bölgədə ciddi səviyyədə problem yaradan məsələlərdəndir. Bu müharibə xüsusilə iqtisadiyyatı zəif olan qonşu ölkələrə ciddi təsir göstərir". Bu sözləri SİA-ya açıqlamasında türkiyəli politoloq, uzun illər Türkiyə siyasətində aktiv rol almış Cihat Rahmi Akar deyib.

Onun sözlərinə görə, müharibənin başladığı ilk gündən bu günə qədər Rusiya-Ukrayna arasında olan müharibədən əlavə Avropa ilə Rusiya arasında bir müharibəyə çevrildiyi müşahidə edilir: "Bu da xronikləşmiş bir vəziyyət yaradır. Müharibənin ciddi səviyyədə təhlükəli mərhələyə dönüşəcəyi ilə bağlı ciddi tərəddüdlərimiz var. Bu tərəddüdlərin ortadan qaldırılması üçün xüsusilə Türkiyə ortaq nöqtəni tapmağa çalışsa da, hələ də müsbət bir nəticə əldə olunmayıb".

Cihat Rahmi Akar sözlərinə belə davam edib: "Türkiyə və Rusiya prezidentlərinin görüşləri çərçivəsində taxıl koridorunun açılması və bu koridordan taxıla ehtiyacı olan ölkələrə taxıl ixracı edilməsi məsələsi müzakirə olundu.

Təhdidlərin ortadan qaldırılması üçün Avropa, NATO və BMT-nin vəziyyəti yumuşaltmaq baxımından Rusiya-Ukrayna arasında razılaşma məsələsini müzakirə etməlidirlər. Çünki məsələ günü-gündən uzanır və problemlər də artır. Bu da təbii ki qonşu ölkələrə mənfi təsir edir.

Məsələnin həllində dövlət başçılarının böyük rolu var. Ukrayna prezidenti Avropa və BMT-nin əsarəti altındadır. Ukrayna onların verdiyi maddi yardımlarla Rusiyaya müqavimət göstərir. Rusiya isə bütün bunlara baxmayaraq təcavüzə davam edir. Müharibə hər iki ölkəyə ciddi itkilər yaşadır. Düşünürəm ki, sülh və barışın olması istiqamətində ciddi addımlar atılmalıdır".

***Ayşən Vəli***

## Ağcabədidə gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər





***"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.***

2023-cü il aprelin 7-də YAP Ağcabədi rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda xatirə şəkli çəkdirilib.



# Heydər Əliyev-100

## Heydər Əliyevin Azərbaycan Sənayesinin inkişafındakı misilsiz rolu

***Azərbaycanın son yarım əsrlik tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Yüksək erudisiyaya, dərin zəkaya, müdrik uzaqgörənliyə və zəngin təcrübəyə malik olan Heydər Əliyev dühası bütövlükdə Azərbaycan iqtisadiyyatının, o cümlədən Azərbaycan sənayesinin inkişafında olduqca-böyük rol oynamışdır.***



*Zahir Qəhrəmanov*
*YAP Şirvan təşkilatının sədri*

Ulu Öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycanın rəhbəri seçiləndə respublikamız keçmiş SSRİ-də axırıncı yeri tuturdu. Heydər Əliyev ilk növbədə, iqtisadiyyatda yaranmış ağır vəziyyətin, onu doğuran səbəblərin sistemli təhlilini apardı, risklər edərək bir sıra təşkilati tədbirlər həyata keçirdi. İttifaq hökuməti qarşısında respublikanın gələcək iqtisadi həyatı ilə bağlı məsələlər qaldırdı və qısa vaxtda Sovet hökumətinin Azərbaycan Respublikasının inkişafına dair xüsusi qərarın qəbul edilməsinə nail oldu. Milli gəlir, sənaye, kənd təsərrüfatı məhsulları istehsalındakı geri-lik aradan qaldırıldı, yeni keyfiyyətli inkişafın fundamental əsaslarının möhkəmləndirilməsi üçün xeyli iş görüldü. Ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edən neft-qaz, neft-kimya, energetika, maşınqayırma, metallurgiya, yüngül və yeyinti sənayesinin və digər sahələrin inkişafına xüsusi diqqət ayırmışdır. Məhz həmin illərdən başlayaraq Azərbaycan sənayesinin yüksəlişi başladı. Yeni kimya müəssisələrinin yaradılması, mövcud istehsalatların müasirləşdirilməsi sahəsində işlər xeyli sürətlənmişdi. Həmin dövrdə sintetik kauçuk zavodunda yüksək təzyiqli polietilen, butil-kauçuk, butil-stirol lateksi qurğuları işə salınmışdı. Məhz yüksək markalı kauçuk istehsal edən sexin yenidən qurulması Bakı Şin Zavodunun yerli xammal ilə təchiz olunmasına imkan vermişdi. Əhalinin məişət tələblərini ödəmək üçün tikilən Sumqayıt yuyucu vasitələr zavodu (sonralar Məişət kimyası zavodu)istifadəyə verilmişdir. Sumqayıt superfosfat zavodunda aparılan yeniləşmələr, xaricdən gətirilən avadanlıqlar hesabına 1975-ci ildə yeni sexin istismara verilməsi sulfat turşusunun istehsal gücünü ildə 450.000 tona çatdırmağa imkan vermişdi. 1980-83-cü illərdə ölkənin kənd təsərrüfatının tələbatı nəzərə alınaraq burada dənəvər superfosfat gübrəsi istehsal edən yeni qurğu da işə salındı.

Neft sənayesinin innovasiyalar üçün münbit zəmin olduğunu yaxşı bilən Heydər Əliyev özünəməxsus böyük uzaqgörənlik nümayiş etdirərək, Ümumittifaq neft sənayesinin konseptual inkişaf perspektivlərini təmin edən bir çox təsisatları elmi-tədqiqat institutlarını, istehsalat birliklərini, mühüm strateji müəssisələri Bakıda cəmləşdirdi. Məlum olduğu kimi, 1970-ci ilə qədər Xəzər dənizində istifadə olunan texniki vasitələr dənizin cəmi 40 metrədək dərinliyində işləməyə imkan verirdi. Xəzərin Azərbaycan sektorunda bu dərinliklərdə olan perspektiv strukturlar isə, demək olar ki, bütünlüklə kəşf olunmuşdu. Buna görə əvvəlcə dənizin 70 metr dərinliyində kəşfiyyat-axtarış işləri aparmağa imkan verən "Xəzər" tipli üzən qazma qurğuları alındı. Görülən tədbirlər tezliklə "Bahar" və "Bulla-dəniz" yataqlarının açılması ilə nəticələndi. Xalqımızın Ümummilli lideri az sonra qarşıya dənizin 200 metr və daha çox dərinliyində işləmək vəzifəsi qoydu və böyük siyasi qətiyyət, iradə bahasına bu məqsədinə də nail oldu. 1970-1980-ci illərdə "Şelf" tipli o dövr üçün ən müasir yarımdalma üzən qazma qurğularının respublikaya gətirilməsi dərinsulu sahələrdə zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yaratdı. 80-ci illərdə bu qurğuların sayı artıq 11-ə çatmışdı. "Şelf" tipli qurğular Azərbaycana uzun müddət xidmət etdi və müstəqillik dövründə "Dədə Qorqud", "İstiqlal" kimi daha modern qurğuların yaranması üçün təməl rolunu oynadı. Ulu öndər Heydər Əliyevin Azərbaycan neft sənayesinin müasirləşdirilməsi istiqamətində göstərdiyi xidmətlərdən danışarkən Dərin Dəniz Özülləri Zavodunun işini xüsusi qeyd olunmalıdır. Bir-birinin ardınca kəşf olunan dəniz yataqlarında platformaların tikilməsi üçün nəzərdə tutulan və o dövrdə dünyada analoqu olmayan zavodun Bakıda yaradılmasına icazə alınması (əvvəlcə Həştərxanda tikilməsi nəzərdə tutulmuşdu), bu məqsədlə Sovet İttifaqının büdcəsindən böyük məbləğdə vəsaitin ayrılması, 1978-ci ildə əsası qoyulan sənaye nəhənginin 1984-cü ildə istismara verilməsi Heydər Əliyevin siyasi müdrikliyinin, onun təşəbbüskarlıq və prinsipiallığının nəticəsində mümkün olmuşdu. Təsadüfi deyil ki, Ulu öndərin adını ləyaqətlə daşıyan bu zavod indi də müstəqil dövlətimizin iqtisadi qüdrətinin möhkəmlənməsinə xidmət edir.

Azərbaycanda həyata keçirilən qlobal siqlətli enerji layihələrinin gerçəkləşməsində Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun rolu danılmazdır. Bu gün müstəqil Azərbaycanın neft emalı və neft kimyası kompleksində aparıcı yer tutan bütün dominant qurğular məhz həmin dövrdə inşa edilmişdir. 1976-cı ildə "ELOU-AVT-6", 1980-ci ildə yüksək oktanlı benzin istehsal edən "Katalitik Riforminq", 1986-cı ildə "Neftin kokslaşdırılması", 1993-cü ildə "Katalitik krekinq" qurğuları tikilib istismara buraxıldı, 1981-ci ildə EP-300, 1982-ci ildə isə "Polimer-120" qurğusunun təməli qoyuldu. Beləliklə, ötən əsrin 70-80-ci illərində xalqımızın Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə neft sənayesinin müasirləşdirilməsi istiqamətində atılan addımlar ümumilikdə respublika iqtisadiyyatının güclənməsi üçün möhkəm zəmin yaratmışdı.O dövrdə respublikamızın neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1975-ci ildə ümumi neft və qaz hasilatı şərti yanacaqla 27,1 milyon tona çatdırıldı.Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, sonradan isə beynəlxalq aləmdə yüksək qiymətləndirilmiş və haqlı olaraq "Əsrin Müqaviləsi" adını qazanmış bu saziş respublikamızın salnaməsinə qızıl hərflərlə həkk olunub və Heydər Əliyevin neft strategiyasının şanlı səhifəsinə çevrilib. Məhz bu tarixi addımla müstəqilliyini bir daha sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirib. Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi, eyni zamanda, Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması nümayiş etdirildi. "Əsrin Müqaviləsi" Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı.

Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlərlə birlikdə hasil olunan neftin və qazın nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edir. Neft strategiyasının həyata keçirilməsinin ilk illərində əvvəlcə Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri yenidən quruldu, daha sonra neftin və qazın etibarlı və irimiqyaslı ixracını təmin etmək məqsədi ilə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac və Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri tikilərək, istismara verildi."Əsrin Müqaviləsi" ilə əsası qoyulmuş milli neft strategiyasının uğurlarının nəticəsi olaraq Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranıb. Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların başlanğıcında məhz milli neft strategiyası, bu strategiyanın ilk şanlı səhifəsini və təməl daşını isə ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu "Əsrin Müqaviləsi" təşkil edir.

Ulu Öndər Azərbaycanda Maşınqayırma sənayesinə də xüsusi diqqət yetirib.Əvvəllər neft maşınqayırması kimi təşəkkül tapmış maşınqayırma sahəsi 1970-1980-ci illərdə əsaslı inkişaf etdirilib və nəticədə bir sıra vacib istiqamətləri əhatə edən maşınqayırma sənayesi kompleksinə çevrilib. Yüksək əmək və elm tutumuna malik olan bu sənaye sahəsi vaxtilə özündə 160-a yaxın müəssisə və təşkilatı, 110 min nəfərdən çox fəhlə və mütəxəssisi birləşdirib, minlərlə çeşiddə məhsul istehsal etmək imkanına malik olub. Respublikanın ümumi sənaye istehsalının 1/5 hissəsi məhz bu sahənin payına düşüb. Bu sahənin inkişafı üçün Heydər Əliyevin səyi nəticəsində Azərbaycanda köhnə zavodlar müasirləşdi, və bir çox yeni zavodlar tikildi.Bunlardan "Bakı Kondinsionerləri" zavodu, "AZE-LEKTROTERM" zavodu, "Dərin Özüllər"zavodu, " Gəncə Aliminium" zavodu, "B.Sərdarov adına Polad Tökmə"zavodu, "Gəncə Avtomobil"zavodu, "Keşlə Maşınqayırma"zavodu, "Sumqayıt Maşınqayırma" və sairləri. Maşınqayırma ağır sənaye kompleksi olaraq xalq təsərrüfatı üçün əmək alətləri, istehlak predmetləri və müdafiə xarakterli məhsullar istehsal edən bir sahədir. Maşınqayırma ümumilikdə xalq təsərrüfatının texniki təminat bazası olaraq, istehsalatda əmək məhsuldarlığını yüksəltməklə, insanların maddi rifahının yaxşılaşmasına və dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycan iqtisadiyyətinin ən vacib sahəsi olan elektroenergetika sənayesinin inkişafında da Heydər Əliyevin misilsiz xidmətləri var. Ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hələ ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq respublikanın elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə başlanmışdır. Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım oldu. 1971-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində Araz çayı üzərində İran-Azərbaycan "Araz" SES adı altında gücü 22 MVt olan stansiyanın inşası, 1972-ci ildə "2 saylı Sumqayıt İstilik Enerji Mərkəzi"nin gücünün 220 MVt-ya çatdırılması, 1976-1977-ci illərdə Sərsəng su anbarı və gücü 50 MVt olan eyniadlı su elektrik stansiyasının istifadəyə verilməsi məhz ümummilli liderin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edir. Bu illərdə həmçinin gücü 380 MVt olan Şəmkir Su Elektrik Stansiyası istismara buraxılmışdır. Ötən əsrin 80-ci illərində və elə bu gün də Cənubi Qafqazın ən böyük istilik-elektrik stansiyası sayılan, gücü 2400 MVt olan 8 enerji blokundan ibarət, kritik parametrdən də yüksək parametrlərdə işləmək imkanına malik "Azərbaycan" İES istismara buraxılmışdır. Həmin dövrdə elektrik stansiyalarının inşası ilə yanaşı, elektrik şəbəkələri də sistematik inkişaf etdirilmiş və respublikamızın dayanıqlı enerji sistemi yaradılmışdır. O illərdə 330 kV-luq Əli Bayramlı İES - Ağdam - Gəncə - Ağstafa, Əli Bayramlı - Yaşma-Dərbənd, 5-ci Mingəçevir, 500 kV-luq 1-ci və 2-ci Abşeron, Muxranis - Vəli və digər elektrik verilişi xətləri, 330/110/20 kV-luq Yaşma, Gəncə, Ağstafa, 330/110/10 kV-luq İmişli, 500/330/220 kV-luq Abşeron, 220/110/10 kV-luq Hövsan, Nizami, Müşfiq, Səngəçal, Masallı, Ağsu, Babək və başqa qovşaq yarımstansiyaları istismara verildi. Bununla da elektrik enerjisi sahəsində yeni inkişaf mərhələsinin başlanğıcı qoyuldu.

Ümummilli lider Heydər Əliyevin bu sahədə özünəməxsus uzaqgörənliklə müəyyənləşdirdiyi mükəmməl strateji xəttin uğurla həyata keçirilməsi və hazırda Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilməsi ölkəmizi regionun aparıcı dövlətinə, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təminatçılarından birinə çevirmişdir. Ölkə iqtisadiyyatının inkişaf sürətini nəzərə alan dövlət başçısı "Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) Dövlət Proqramı"nı təsdiq etmişdir. Ötən dövr ərzində dövlət proqramının uğurla həyata keçirilməsi nəticəsində respublikanın elektrik enerjisi sistemində generasiya gücünün artımı 2000 MVt-dan çox olmuşdur. Elektrik enerjisinin ötürülməsi sistemində isə ümumi gücü 2000 meqavoltamperə yaxın 500-dən artıq yeni transformator quraşdırılmış və ümumi uzunluğu 30 min kilometrdən artıq elektrik verilişi xətləri istifadəyə verilmişdir. Ümummilli Liderimizin müəyyənləşdirdiyi sənayeləşmə siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda sənayeləşmə templəri yüksəlmiş, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Cənab Prezidentin dediyi kimi: "Azərbaycan öz sənaye potensialını inkişaf etdirir və sənayeləşmə siyasətimiz uğurla davam etdirilir".

Qeyd edək ki, müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan yeni müəssisələrin yaradılması ilə Azərbaycanda istehsal edilən sənaye məhsullarının çeşidi və rəqabətqabiliyyətliliyi də sürətlə artır. Hazırda ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrində ərzaq məhsulları, müxtəlif tikinti materialları, avtomobil, kompüter, günəş batareyaları, elektrik avadanlıqları, mebel və s. istehsal olunur, bir çox sənaye məhsulları üzrə Azərbaycan özünü təmin edir. Azərbaycan sənayesinin elə bir sahəsi yoxdur ki,orda Heydər Əliyev imzası olmasın. Biz bu gün əldə etdiyimiz bu yüksək nailiyyətlərə görə Ona,o dahi şəxsiyyətə borcluyuq. Biz hər zaman Heydər Əliyev irsindən bəhrələnərək, müasir Azərbaycanın inkişafında, quruculuğunda öz zəhmətimizi əsirgəməyəcəyik.




# Qərbi Azərbaycanda mədəni irs soyqırımı

**EKSPERT DANIŞDI**

"Millətçi, təcavüzkar Ermənistanda – tarixən Qərbi Azərbaycan ərazisi sayılmış bu coğrafiyada min illər boyu yaşamış soydaşlarımızın etnik mövcudluğuna son qoyulması və onların mədəni irsinin məhv edilməsi son bir əsrdə dövlət siyasəti səviyyəsində gerçəkləşdirilmişdir. Nəticədə, azərbaycanlıların bu ərazilərin tarixi və əzəli sakinləri olduğunu sübut edən izləri yox



etmək üçün məqsədyönlü şəkildə, kütləvi vandallıq aktları törədilmişdir. 1988-ci ildən başlanan sonuncu etnik təmizləmə nəticəsində on minlərlə azərbaycanlı ailəsinin əmlakı və mədəni irs nümunələri də ermənilər tərəfindən qarət edilmiş, mənimsənilmişdir. Bundan başqa, Qərbi Azərbaycanın qədim toponimləri bütünlüklə erməni adları ilə əvəzlənmişdir". Bu sözləri SİA-ya açıqlamasında AMEA-nın Tarix İnstitutunun əməkdaşı, Beynəlxalq Memarlar Akademiyasının Moskva şöbəsinin professoru, mədəni irsin araşdırılması üzrə ekspert Faiq İsmayılov deyib.




Onun sözlərinə görə, tarixə yönəlik vəhşilik, vandalizm təkcə mədəniyyət abidələrini məhv etməklə bitmir, onun tarixini dəyişdirmək, restavrasiya adıyla qədimliyinə zərbə vurmaq da barbarlığın, həyasızlığın bir nümunəsidir: "Ümumiyyətlə, İndiki Ermənistan ərazisində xalqımıza məxsus 3 min 500 tarix və mədəniyyət abidəsi, 500 qəbiristanlıq, 391 məscid qəddarlıqla dağıdılmış, tamamilə yox edilmişdir.

İrəvan şəhərində vaxtilə sırf azərbaycanlıların yaşadığı Dəmirbulaq massivində XX əsrin əvvəlində üç məscid qeydə alınmışdır. Həmin məscidlər bunlardır: Hacı Novruzəli bəy, Hacı Cəfər bəy və Dəmirbulaq məscidi. 1988-ci il fevralın 23-də erməni vandalları İrəvan şəhərindəki Dəmirbulaq məscidini və M.F.Axundov adına 9 №-li azərbaycanlı orta məktəbin binasını yandırmışlar.

İrəvan şəhəri və onun ətrafında mövcud olan azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrindən yeganə salamat qalanı şəhərin yaxınlığında, İrəvan–Eçmiədzin yolunun üstündə yerləşən Cəfərabad kəndindəki Əmir Səəd məqbərəsidir. Əmir Səəd məqbərəsi Qaraqoyunlu əmirlərindən olan Əmir Səədin oğlu Pir Hüseyn tərəfindən atasının məzarı üzərində ailə türbəsi kimi 1413-cü ildə inşa etdirilmişdir. Cəfərabad kəndinin adını ermənilər 1946-cı ildə dəyişdirərək Arqavand adlandırmışlar.

İrəvan şəhərini təsvir edən bütün səyyahların və tədqiqatçıların əsərlərində həm ölçülərinin miqyasına, həm də gözəlliyinə görə şəhərin ən möhtəşəm memarlıq abidəsi kimi Göy məscidin adı birinci çəkilir. Şərq memarlığının nadir nümunələrindən hesab edilən Göy məscidin inşasına 1760-cı ildə başlanılmış, 1765-ci ildə Hüseynəli xanın hakimiyyəti dövründə başa çatdırılmışdır. Həmin məscid 1616-cı ildə Şah Abbas dövründə Gəncədə inşa edilən Cümə məscidinə bənzəyir. Hazırda Ermənistan rəsmiləri Göy məscidi xaricdən gələn qonaqlara "Fars məscidi" kimi təqdim edirlər.

İrəvan şəhərindəki Hacı Novruzəli bəy məscidi XVIII yüzilin 2-ci yarısında Qara Seyid adlı şəxs tərəfindən tikilmişdir. Məscid şəhərin Dəmirbulaq massivindəki Hacı Novruzəli məhəlləsində (indiki dəmiryol vağzalı rayonunda) yerləşdiyindən məhəllənin adı ilə Hacı Novruzəli bəy məscidi adlanmışdır. Təkminarəli bu məscid XX yüzilin 30-cu illərində erməni vandalları tərəfindən dağıdılaraq məhv edilmişdir.

Ayrı-ayrı dövrlərdə səyyahların əsərlərində, tədqiqatçıların araşdırmalarında İrəvan qalasındakı Sərdar sarayının yaxınlığında yerləşən "Sərdar məscidi", yaxud "Abbas Mirzə məscidinin" adları çəkilir. Ermənistan hökuməti məscidin qalığını "qorunan tarixi abidələr" siyahısında 2007-ci ildə Avropa Şurasına təqdim etmişdir. Erməni vandalları Sərdar məscidinin "qorunan" divar qalığını da 2014-cü ilin noyabr ayının ortalarında yer üzündən silmişlər.

Sisyan rayonunun (keçmiş Zəngəzur qəzasının Qarakilsə nahiyəsi) Ağudi kəndində, Sisyan şəhərindən 5 kilometr məsafədə yerləşir. Ağudi qəbirüstü abidəsi VII əsrdə tikilmişdir. Ağudi kəndi Sisyan rayonunun ən qədim azərbaycanlı kəndlərindən biri idi. Ermənistan parlamentinin qərarı ilə Ağudi kəndinin adı dəyişdirilərək Aqitu qoyulmuşdur".

***Ləman Əlizadə***



# 2023-cü ilin ən trend saç kəsimi modelləri bunlardır

***Saç düzümü 2023-cü ildə trendləri yaxından izləmək istəyənlərin araşdırdığı bir mövzudur. 2023-cü il saç kəsimində cəsur olanların ilidir. Çünki bu il qısa saçlar dəbdədir. Lakin bununla yanaşı, dəbdə olan uzun saç kəsimləri də var. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

**1. Pixie**

Əlverişli və asanlıqla formalaşdırıla bildiyi üçün qısa saç düzümlərini sevməyən yoxdur. Pixie saç düzümü son zamanların ən populyar və axtarılan saç düzümlərindən biridir. 2023-cü ilə damğasını vuran bu model aktiv, canlı və gənc görünüş təmin edir.

Bu üslubun özündə müxtəlif variantlar var, bunlar: Asimmetrik, qısa tərəflər, buruq qısa tel, arxa kəsikli pixie modelləridir. Bu saç modeli üçün saç jeleləri forma vermək üçün ən böyük köməkçiniz olacaq.

**Bob**

Saçlarınızın nazik görünməsindən şikayət edirsinizsə, bu saç kəsimini sınayın. Öndən arxaya qısaldılmış bu saç düzümü çox dəbdir. Qeyd edək ki, tərs üçbucaqlı üz cizgiləri olan xanımlara yaraşan bu model üzü daha yuvarlaq və mütənasib göstərir.

**Bixie**

Bob və Pixie kəsimlərinin ortasında dayanan Bixie, gözləntilərinizi qarşılayacaq bir modeldir. Bixie saç düzümünün ən yaxşı tərəfi, əlbəttə ki, onun çox yönlü olmasıdır. Geyiminizə, dəvətlərinizə və ehtiyaclarınıza uyğun olaraq ən uyğun modeli edərək forma verə bilərsiniz.

**Dağınıq**

Dağınıq görünən saçlar bu mövsümün ən trendlərindən biridir. Bu model ən çox buruq saçlı olanlara yaraşır. Buruqları aydınlaşdıran şampun seçərək saçınızın təbii quruluşunu ortaya çıxara bilərsiniz.

**Qatlı**

Qatlı saç düzümü olaraq da bilinən bu modelin ən böyük üstünlüyü, təbii ki, asan formalaşdırılmasıdır. Saç tipinizə uyğun qulluq kremi ilə əlverişli görünüş əldə edə bilərsiniz.

**Lob**

Bu saç düzümü son zamanlar məşhurlar arasında çox populyardır. Bu saç düzümü hamıya yaraşa bilər. Müasir üslubu vurğulayan bu saç oval, üçbucaq, kvadrat, almaz və uzun kimi bir çox üz formalarına mükəmməl uyğun gəlir.

**Ağır qatlar**

Keçən il Hailey Bieber kimi bir çox moda ikonlarının seçimi olan ağır qatlı saç düzümü kəsimini dəyişəcək olanlar üçün yaxşı seçim kimi görünür. Cennifer Anistonun Dostlar serialında Rachel Green obrazını canlandırmasından ilhamlandığını düşündüyümüz bu saç düzümü 2023-cü ildə də dəyərini qoruyacaq.

**Pərdə**

1970-ci illərdən bəri istifadə edilən və hər mövsümün trend saç düzümü arasında yer alan pərdə saç kəsimi 2023-cü ildə də populyarlığını qoruyacaq. Saçlara ölçü qatan, üz formasını vurğulayan, saçları həcmli göstərən bu model, fərqlilik axtarırsınızsa, sizin üçün əla seçim olacaq.

**Canavar kəsimi**

10. 70-ci illərdən çıxan bu saç düzümü 2023-cü ilin trendlərinə damğasını vuracaq. Retro saç düzümü ilk seçiminizdirsə, bu kəsimi bəyənəcəksiniz.

Bu tip saç kəsimləri istənilən üz formasına uyğunlaşdırıla bilər, sadəcə olaraq üzünüzün formasına uyğun olaraq saçları tənzimləyin. Bu saç düzümündə məqsəd saçın daha dolğun və sıx görünməsini təmin etməkdir.

**Ghost**

İncə, zəif görünən saçlarınıza canlılıq gətirəcək bu kəsimin sizə çox yaraşacağını düşünürük. Saçınızı qısaltmaq istəmirsinizsə, həm də trendləri izləmək istəyirsinizsə, bu kəsim əla seçimdir.

Saçın uzunluğundan götürmədən saça hərəkət və toxuma qatan bu texnika, görünməyən təbəqələri sayəsində saçlarınıza həcm qatacaq.

**Kəpənək saç kəsimi**

Kəpənək kəsimi saçların həm uzun, həm də qısa görünməsini təmin edən bir modeldir. Uzun illərdir vazkeçilməz olan bu kəsim saçda illüziya yaradır.

Kəpənək saç düzümü ilə saçlar öndə qısa, arxada daha uzun görünür. Belə ki, uzun saç görünüşü ilə rahatlıq, qısa saç düzümü ilə trendlərlə harmoniya gətirir.

ARAŞDIRMA

***Ayşən Vəli***

# Həm ata, həm ər kişilər: Onlar uşaqdan niyə qorxur?

*Atalar da zahılıq depressiyasına girən qadınlar kimi depressiyaya girə bilər*



*Əksəriyyətimiz qadınların doğuşdan sonra depressiya yaşadığı barədə eşitmişdik, bəzilərimiz yaşamışıq, bir çoxumuz da müşahidə etmişik. Amma tək analar yox, atalar da həyat yoldaşının doğuşundan sonra depressiyaya düşə bilir. Mütəxəssislərin fikrincə, kişilərin doğuşdan sonra depressiyaya düşməsinin əsas səbəbi işsizliklə, gəlir azlığı, uşağın maddi təminatını ödəməyi bacara bilməmə qorxusu ilə əlaqəli olur. Belə ki, hər 25 atadan birində müşahidə edilən depressiya uzun zaman davam edir. Araşdırma nəticəsində o da məlum olub ki, depressiyada olan ataların 40 faizi həyat yoldaşına və övladına zorakılıq tətbiq edə bilir.*



Məşhur rusiyalı psixoloq Katerina Demina gazeta.ru-ya müsahibəsində gənc valideynlərin uşağın həyatının ilk ilində üzləşdiyi çətinliklərdən danışıb. Psixoloq ailə və cəmiyyətdə bu problemlərin həlli üçün çox sayda səhv edən insanlara məsləhət verib. Kişilərin doğuşdan sonra keçirdiyi psixoloji gərginlik barədə danışan psixoloq bildirir ki, kişilər bu dövrü qadınlar qədər ağır keçirə bilir.

**- Yaşlı nəslin nümayəndələrindən tez-tez məzəmmətlər eşidirik, indiki dövrdə, bu imkanlar varkən uşağa baxmaqdan, onunla məşğul olmaqdan necə yorulmaq olar? Axı indi paltarı, qabı maşın yuyur, evi robot tozsoran təmizləyir, bazarlığı online sifariş edirsən çatdırırlar. Vaxt çox qalır. Bəs gənc analar niyə yorulur?**

-Bunu, adətən, ayda bir saatlıq nəvəsini görməyə gələn nənələr deyir. Axı o ana hər şeylə təkbaşına mübarizə aparır. Ən sakit təbiətə malik, gündə 8-10 saat yatan və az hərəkət edən uşaq belə fərqli psixikaya malik fərqli insandır. Üstəlik, bir ailədə 2-3 uşaq olursa, zəhməti 2-3 qat artır. Nənələr hər şeyin öz dövrlərindəki kimi olduğunu güman edirlər.



Elə deyil. İndi uşaqlar hiperaktivdir, çox hərəkət edirlər, çox soruşurlar. Dolayısı ilə analar da çox enerji xərcləməli olur.

**-Kişilər ilk uşaqdan qorxurlar, bu, doğru ifadədir?**

-Ailədə ilk körpə doğulana kimi qadının bütün diqqəti ərinin üzərində olur. Körpə doğulduqdan sonra bu diqqət paylanır, bu, həyatın qanunudur. Kişilər bu halda qadın ruhunda nə baş verdiyini bilmirlər. Qayğı gözləyirlər, amma qayğı göstərmirlər. Qayğıdan məhrum qalan qadının psixologiyasında təbii ki, problem yarana bilər. Ərlə münasibət vacibdir, ər-arvad bir-biri ilə nə qədər yaxındırlarsa, ailə bütövlüyü bir o qədər güvəndədir.

**- Bunun qarşısını necə almaq olar?**

- Gənc anaya, sadəcə, özü ilə tək qalmaq üçün vaxt lazımdır. Bu vaxtı, şəraiti ona vermək lazımdır.

Tam vaxtdan söhbət gedir. Hamama girərkən qazandığı 5 dəqiqəni nəzərdə tutmuram, yaxud çay içərkən qazandığı 5 dəqiqə. Doya-doya yaşayacağı asudə vaxtdan bəhs edirəm. Biz ataya bu vaxtı veririk, "işdən gəlib, getsin dincəlsin", "yorulub, istirahət eləsin" deyirik, çünki o ailəni təmin edir, istirahət etməlidir. Axı ana da işləyir, üstəlik, iş saatları bəlli olmadan, fasiləsiz, gecə-gündüz. Amma anaya bu şans tanınmır. Təbii ki, hər iki valideynin də belə asudə vaxta ehtiyacı var, amma ata işdən yorulub gələndə istirahət edə bilir, qadın evdə yorulanda istirahət imkanı olmur.

1 yaşındadək uşaqlar anadan ayrılmır, eyni bədənmiş kimi yaşayırlar. Ana müddət ərzində psixiloji çökür, yorğunluğu artır, nəticədə xəstələnir. Şərt deyil fiziki sağlamlığını itirsin, onun ruhu xəstələnir. Çünki onun fiziki bədəni ana olmağa dözür, amma ruhu yük altında əzilir.

**– Bütün bunlarla yanaşı, bəzi qadınlar üçün analıq digərlərinə nisbətən daha asandır. Niyə?**

- Bu, əslində, bir çox amillərdən asılıdır. Məsələn, ananın öz körpəliyi necə keçib, nə qədər pis olub. Əgər xoşbəxt uşaqlıq keçiribsə, əlbəttə, analıq onun üçün o qədər çətin olmayacaq. Amma xoş olmayan bir uşaqlıq dövrü olubsa, onda necə? Bəlkə o özü arzuolunmaz uşaq olub, bəlkə ailədə zorakılıq görüb, bəlkə anası xəstə olub onunla məşğul ola bilməyib? Uşaqlıq illəri nə qədər çox pis olubsa, valideynlik bir o qədər dözülməz olar. Üstəlik, bu məsələdə yetkinlik dərəcəsi vacibdir. Qadın psixoloji cəhətdən nə qədər yetkin olsa, onun analıq xüsusiyyətlərinə tab gətirməsi bir o qədər asan olar, çünki o nə hiss etdiyini, nəyə ehtiyacı olduğunu bilir. Bilməlisiniz ki, həyatınızı siz sistemləşdirməlisiniz, başınıza qəfil nəsə gəlməməlidir. Kənardan dəstək gözləyən, anasından-qaynanasından, həyat yoldaşından kömək gözləyən, hələ mənliyini dərk etməyən yetkinləşməmiş analar üçün, əlbəttə, daha çətindir.

Həmçinin, uşaq doğulanadək ailənin necə həyat sürdüyü də əhəmiyyətlidir. Daim səyahətlərdə olan, gəzməyi sevən cütlük doğuşdan sonra evə qapanırsa, təbii ki, ailədə problemlər olacaq. Aktiv həyat tərzi olan qadın ana olduqdan sonra evdən çölə çıxmırsa, bu, həm öz psixologiyasında, həm də uşağın psixologiyasında özünü göstərəcək. Evdə oturmağın nə qədər darıxdırıcı olduğunu anlaya bilməyən yaşlı nəsil ata-analığın özəl həyatı çox dəyişmədiyi bir vaxtda uşaq böyüdüb.

**-Biz öz anamız kimi ana oluruq?**

-Vacib məsələdir. Ana olan qadının öz anası ilə nə qədər oxşar olması əhəmiyyətli məsələdir. Əgər ana yaxşı bir evdar xanımdırsa, uşaqları ilə daha çox vaxt keçiribsə, övladları da onun xarakterindən özünə pay götürür. Qəbul etməsək belə, biz bir çox hallarda atamız kimi ata, anamız kimi ana oluruq.

**– Çox vaxt olur ki, uşaq arzulayan və bunun üçün çox əziyyət çəkən qadınlar doğuşdan sonra stress yaşayırlar. Bəs bu ziddiyyət nədir?**

– Əgər qadın həqiqətən uzun illər uşaq istəyirdisə, uğursuz hamiləlik cəhdləri, uşaqsalmalar olubsa, bu, onun psixologiyasını yaralayıb, amma özü fərqində deyil. Çox vaxt bu xırdalıqlara fikir verilmir, ciddi qəbul edilmir. Ana qorxu içində hamiləlik keçirir, övladını itirəcəyindən qorxur. Nəticədə, arzulanan, çoxdan gözlənilən bir uşağın doğulması, xoşbəxtlik ilə birlikdə körpəyə ötürülən qorxu və narahatlığa da səbəb olur.

**- Atalar da belədir?**

-Bəli. Atalar da doğuşdan sonrakı depressiyaya girə bilirlər. Onlar artıq yalnız ər deyillər, həm də atadırlar. Bu fikrə alışmaqları zaman alır. Qadınlar ana olmağa hamiləlik dönəmindən hazırlaşırlar, doğduqdan sonra körpəyə alışmaqları zaman almır. Amma atalar bu prosesdən çətin keçirlər. Biz ilk övladı olan kişini özündən sonra ilk qardaşı və ya bacısı olan uşağa da bənzədirik. Travma eynidir çünki. Necə ki, uşaqlar qardaşı və ya bacısı doğulanda valideynlərinin yeni körpəni daha çox sevəcəyini düşünür, kişilər də ilk övladı doğulanda həyat yoldaşının yalnız uşağı sevəcəyini və ona diqqət göstərməyəcəyini düşünür. Düzgün yol atanın bu ailədə həm ər, həm də ata kimi özünü təsdiqinə şərait yaratmaqdır.

*Tərcümə: Lalə Mehralı*



## "İran səfirliyinin 4 əməkdaşının "persona-non-qrata" elan olunması haqlıdır və əsaslıdır"

**"Diplomatik fəaliyyət barədə Vyana konvensiyasının 1961-ci ildə qəbul edilmiş konvensiyasının 9-cu maddəsi bu və ya digər dövlət diplomatik nümayəndəliyinin tərkibində fəaliyyət göstərən və bu zaman əməlləri diplomatiya müstəvisindən kənara çıxmaqla kəşfiyyat, diversiya, təxribat və səciyyə daşıyan səfirlik əməkdaşlarının fəaliyyət göstərdikləri dövlət ərazisindən təxliyə olunmasına icazə verir. Belə şəxslər adətən persona non qrata elan olunurlar". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.**

Onun sözlərinə görə, Azərbaycanın xüsusi xidmət orqanları İran səfirliyinin təxliyyəsi dövlətimiz tərəfindən tələb olunan şəxslərinin hərəkətlərində yuxarıda sadaladığımız amilləri müəyyənləşdiriblər: "Amma "persona-non-qrata" prinsipinə dövlətlər diplomatik jest uslubunda da müraciət edirlər və adətən bu addım adekvat və ya xəbərdarlıq ampluasında atılır. Məsələn, keçən il Türkiyə prezidenti Xarici İşlər Nazirliyinə ABŞ və AB nin 10 -a qədər ölkəsinin səfirliklər heyətinin təxliyə edilməsi ilə bağlı tapşırıq vermişdir. İstisna etmirəm ki, bizim bu addımımızdan sonra Azərbaycanın İrandakı səfirliyinin əməkdaşlarından biri və ya bir neçəsi rəsmi Tehran tərəfindən "persona-non-qrata" elan olunacaq. Münasibətlərimizin sonrakı davamına gəlincə isə Azərbaycan və İran dövlətləri arasında hələ 2015-ci ilin martında hücum etməmək barədə müqavilə imzalanmışdır, bununla yanaşı hər iki dövlət öz ərazisindən üçüncü bir tərəfə müqaviləni imzalayan dövlətlərin ərazisindən zərbələrin endirilməsinə yol verməyəcəkləri barədə öhdəliklər götürüblər. Düşünürük ki, İran və Azərbaycan dövlətləri arasında gərginliyin artması üçün ardıcıl, məqsədəyönümlü və planlı şəkildə fəaliyyət göstərən qlobal və regional güc mərkəzləri var, hər iki ölkənin mətbuatında cəmiyyətlərimiz və xalqlarımız arasında nifaq toxumu səpən, etimadsızlıq sindromu yaratmaq istiqamətində fəaliyyət göstərən, bu məqsədlə xaricdəki havadarları tərəfindən ciddi maliyyə dəstəyi, habelə ideoloji sifariş alan media qurumları var və İran, habelə Azərbaycanın Xarici işlər nazirliklərində bu ölkələrin səfirləri ilə keçirilən görüş zamanı bu məsələlər müzakirə obyekti olub, hadisələri qərəzli və sifarişli zəmində işıqlandıran media qurumlarının fəaliyyəti dövlətimiz arasında uzun müddət mövcud olan münasibətlərin səviyyəsinə adekvat olmadığı təəssüflə bəyan edilib, bu mənada regionda suyu bulandırıb, bulanıq suda balıq tutmaq sevdasında olanların məhz regiondan kənar, lakin onu öz nüfuz dairəsinə salmaq istəyənlərin olması şübhə doğurmur".

**GÜLYANƏ**

# Avropa mediası Rusiya-İran-Ermənistan anti-Ukrayna üçlüyünü hədəfə aldı

*Bolqarıstanın və Rumıniyanın aparıcı medialarıUkraynaya qarşı aparılan müharibədə İrəvanın Tehran və Moskva üçün hərbi-texniki, həmçinin logistika rolu haqqında yazdılar: "Ermənistan bu ölkələrə qarşı tətbiq edilən beynəlxalq sansksiyalardan yayınmaq üçün baza rolunu oynayır"*



***Bolqarıstanın beş ən böyük ingilisdilli media səhifələrindən biri olan Sofia Globe Ermənistanın Rusiyanın Ukraynaya qarşı aparılan müharibədəki iştirakına qoşulması və bu müstəvidə İrəvanın Tehranla əməkdaşlığına toxunub. Adıçəkilən media qurumunun yazdığına görə, Ukraynanın energetika resurslarını bombardmana məruz qoyan və yalnız bu ölkəni deyil, həm də qonşu Moldovanı da elektriksiz qoyan pilotsuz uçuş aparatları (PUA) məhz Ermənistan vasitəsi ilə İrandan Rusiyaya daşınıb.***

THE SOFIA GLOBE

### Sofiya Globe: "Tehran İran istehsalı olan PUA-ları və raketləri Ermənistanın beynəlxalq və hərbi aeroportları üzərindən Rusiyaya göndərir"

Sofia Globe Polşa hökumətinin və Avropa komissiyasının dəstəyi ilə işıq üzü görən New Eastern Europe nəşrinə istinad edərək yazır. SİTAT: "Ayətullahlar Putini onun Ukraynaya qarşı apardığı müharibəsində dəstəkləyir. Amma bununla yanaşı, Moskvaya yardım kimi göndərilən məhsulların və yüklərin Avropa İttifaqı, ABŞ və Böyük Britaniyanın sanksiyalarından yan keçirilməsi üçün İrəvan hökumətinin sözəbaxan tranziterlərinə ayrıca rol ayrılıb... Tehran İran istehsalı olan PUA-ları və raketləri Ermənistanın beynəlxalq və hərbi aeroportları üzərindən Rusiyaya göndərir".

Nəşr qeyd edir ki, Moskva artıq bir neçə aydır ki, İran PUA-larını və raketlərini Ermənistan üzərindən əldə edir, nəticədə Ukraynanın energetik və su infrastrukturlarına dağıdıcı hücumlar edir. "Ermənistan Ukraynaya qarşı aqressiyada nəinki sanksiyalar altında düşən reksport (sanksiya altında düşən məsulların qanunsuz dövriyyəsi) məhsullarını, həmçinin hərbi-texniki təchizatları Rusiya Federasiyasına göndərən tərəfdir, bu ölkə eyni zamanda Rusiya-İrqan alyansının hərbi-logistik bazası rolunu da oynamaqdadır", bolqar nəşri bildirir.

"İrəvandakı hakimiyyət siyasi və iqtisadi cəhətdən özünü Kremlə daha çox bağlamağa başlayıb və mümkün ehtimal budur ki, yeni İran-Ermənistan paktı hazırlanır, eləcə də burada əsas olaraq tranzit-logistika ərazisi kimi istifadə nəzərdə tutulur", deyə Sofia Globe qeyd edir.

### Adevarul: "Ermənistanın BMT-nin Baş Assambleyasının xüsusi sessiyasında "İran İslam Respublikasında insan haqlarının pozulması" qətnaməsinə qarşı çıxması da təəccüblü görünməməlidir"

Mövzu ilə bağlı Rumıniyanın da nüfuzlu informasiya resursları kifayət qədər diqqətçəkən faktlara toxunublar. Misal üçün, ölkənin Adevarul.ro saytı yazır ki, Ermənistan ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ, yaxud CİA) Putin və ayətullahlarla bağlı ona ünvanlanan xəbərdarlıqlarına məhəl qoymur. SİTAT: "Ukraynada müharibə başlayan gündən Tehrandakı və İrəvandakı rəsmi şəxslər bir-birlərinə dostluq bəyannamələri təqdim etmək üçün sanki yarışa girmişdilər. İranın prezidenti Rəisi isə Ermənistanla münasibətlərin əhəmiyyəti barədə dəfələrlə bəyanatlar səsləndirib və erməni tərəfi də dərhal bu bəyanata qarşılıqlı cavablar veriblər. Həmçinin, müxtəlif sahələrdə qarşılıqlı etimad və əməkdaşlıq haqqında sənədlər imzalanıb, ticarət dövriyyəsi isə sürətlə artmağa başlayıb. Ermənistanın Müdafiə Nazirliyi isə etiraf edib ki, İran onların ölkəsinə zərbə PUA-ları və raketlər göndərir. Və Ermənistanın BMT-nin Baş Assambleyasının xüsusi sessiyasında "İran İslam Respublikasında insan haqlarının pozulması" qətnaməsinə qarşı çıxması da təəccüblü görünməməlidir".

### "İrəvanda Kremlin liderini qəbul edən Paşinyan fəxrlə bəyan etdi ki, "Rusiya Ermənistanın strateji partnyoru və müttəfiqidir"

Rumıniya nəşri onu da qeyd edir ki, sözügedən proseslər çərçivəsində İrəvanın Moskva ilə əməkdaşlığı sürətlə aktivləşib: "Ukraynada müharibə başlayandan sonra Ermənistanın baş naziri Nikol Paşinyan 5 dəfə Rusiyaya səfər edib, 6 dəfə Putinlə görüşüb və ondəfələrlə telefon danışığı aparıb. Ötən ilin noyabrında isə İrəvanda Kremlin liderini qəbul edən Paşinyan fəxrlə bəyan etdi ki, "Rusiya Ermənistanın strateji partnyoru və müttəfiqidir". Bundan əlavə, Ermənistanın müdafiə naziri 4 dəfə, ölkənin Təhlükəsizlik Şurasının katibi və Baş qərargahın rəisi iki dəfə Moskvaya səfər ediblər. Ötən ilin dekabrında isə 2023-cü ildə hərbi əməkdaşlıq haqqında razılaşma sənədi imzalanıb. Erməni eskportu isə 187%-lik (!) böyük sıçrayış əldə edib".

### Realitatea və Ziarulprofit media resursları: "Ermənistan Putin rejiminin hərbi-texniki təminatı üçün logistika mərkəzi rolunu oynayır... Və bu da Ermənistanı beynəlxalq sanksiyalar altına sala bilər"

Digər rumın internet-media resursu - Realitatea.ro isə qeyd edir ki, Ermənistan Rusiyanın tətbiq edilən sanksiyalardan yan keçməsinə fəal köməklik göstərir və yalnız mülki məhsulların ixracında deyil. "Bu mənada belə nəticə hasil etmək olar ki, Ermənistan Putin rejiminin hərbi-texniki təminatı üçün logistika mərkəzi rolunu oynayır", deyə Realitatea yazır.

Ziarulprofit.ro isə qeyd edir ki, Nikol Paşinyan bu ilin martına Berlində ölkəsinin Qərb dəyərlərinə sadiqliyi haqqında danışsa da, onun bir sıra davranışları və ölkəsinin strateji mövqeləşməsi daha çox Rusiya ilə yaxınlaşmanı əks etdirir. "Və bu da Ermənistanı beynəlxalq sanksiyalar altına sala bilər", deyə adıçəkilən informasiya resursu vurğulayır.

### Stiripesurse : "MKİ Ermənistana xəbərdarlıq etmişdi ki, İranla Rusiya arasındakı sıx hərbi ittifaqda yer almasın, ancaq Ermənistan bu məsələləri inkar etdi"

Növbəti Rumıniya media səhifəsi - Stiripesurse.ro da kifayət qədər diqqətçəkən məqamlara toxunub. SİTAT: "ABŞ Ermənistana İran və Rusiya ilə münasibətlərində xəbərdarlıq edib, xüsusilə MKİ rəhbərinin 2022-ci ildə Ermənistana səfəri zamanı. O, Ermənistana xəbərdarlıq etmişdi ki, İranla Rusiya arasındakı sıx hərbi ittifaqda yer almasın, ancaq Ermənistan bu məsələləri inkar etdi", deyə adıçəkilən media yazıb.

Bütün bunlar isə bir daha sübut edir ki, artıq Avropa məkanında da Rusiya-İran müttəfiqliyi tandemi çərçivəsində Ermənistanın nə qədər rol alması diqqətlərdən yayınmır. Ukraynada aparılan istila müharibəsində isə bu reallıq daha çox görünməyə başlayır və qeyd edilən faktlar artmağa davam edəcəksə, Ermənistan İranla, Rusiya ilə daha çox hərbi əməkdaşlığa gedəcəksə, İrəvanın Qərbin sərt sanksiyaları ilə üz-üzə qalması ehtimalları da artacaq.

**_Rövşən RƏSULOV_**

ANALİTİKA


PROFIT
NATIONAL
Se pare că Rusia şi Iranului folosesc Armenia ca bază logistică împotriva Ucrainei
Publicat acum o săptămână în 29 martie 2023
De admin


realitatea
Se pare că Rusia şi Iranul folosesc Armenia ca bază logistică împotriva Ucrainei
30 Mart. 2023, 14:25 // În Lume // Realitatea.md
Deşi primul ministru armean Nikol Pashinyan a reafirmat în luna martie a acestui an, la Berlin,


adevărul.ro
Home → Opinii → Trei mere... periculoase: Rusia,...
Mădălina Firănescu
Jurnalistă
Trei mere... periculoase: Rusia, Iran, Armenia
Publicat: 29.03.2023 16:31
Fugită dintr-o Moscovă care-i devenise căminşi care îi oferise şi şansa consacrării literare, scriitoarea armeană Narine Abgarian, inclusă în 2020 de The Guardian în lista celor mai buni şase autori contemporani europeni, mărturisea că a fost şocată de invadarea Ucrainei.


Se pare că Rusia şi Iranului folosesc Armenia ca bază logistică împotriva Ucrainei
Autor: Radu Pop, Redactor
Publicat: 29/03/2023 16:53
Sursa foto: Mediamax.am

# Erməni vəhşiliyinin qarşısının alınması üçün dünya birliyi birləşməlidir



***Nəhayət, dünya birliyi terror və insanlıq əleyhinə olan cinayətlərdən xilas olmaq üçün ermənizmdən və fars- molla rejimindən xilas olmaq üçün birlik və həmrəylik nümayiş etdirməlidir. Əks halda Qafqazda hökm sürən və Asiyanın hüdudlarına doğru irəliləməkdə olan erməni və molla rejiminin terroru genişlənərək dünyanı ağuşuna almalı olacaq. Bu isə bəşəriyyət üçün fəlakətlər gətirər. Hansı ki, bu fəlakət milyonlarla insanın həyatını itirməsi ilə nəticələnə bilər. Ancaq bir faktı unutmaq olmaz ki, zamanında öz məkrli planlarını və niyyətlərini reallaşdırmaq üçün erməniləri bir alət olaraq Qafqaza, xüsusilə də, Azərbaycan ərazilərinə köçürən xarici güclər artıq, səhvlərinin acı nəticələrini yaşamaqdadırlar.***

Bu gün erməni-fars molla rejiminin qardaşlığı nəticəsində region dövlətləri təhlükə ilə üzləşməli olublar. Suriyada, Liviyada, Əfqanıstanda, eləcə də Fələstin torpaqlarında və digər süni şəkildə yaradılan münaqişə bölgələrində insanların kütləvi şəkildə öldürülməsi, məhz erməni və molla rejiminin qurduqları terror təşkilatları tərəfindən həyata keçirilir. Nəinki ayrı –ayrı xalqların tarixçiləri, o cümlədən erməni mənbələri də təsdiq edir ki, ermənilərin həqiqi vətəni Kiçik Asiyadadır, yəni Rusiya ərazilərindən xeyli uzaqdadır və ermənilər Zaqafqaziyada (əsasən, İrəvan quberniyasında), Qafqaz ərazisinin müxtəlif hissələrində yalnız son əsrlərdə məskunlaşmışlar (B.İşxanyan, "Qafqaz xalqları" , SPB,1916,səh 18 )

## Ermənilər bəşəriyyətin vəhşi toplumudur

Ermənilər Azərbaycan ərazilərinə köçürüləndən azərbaycanlılar qığınlara, soyırımlara məruz qalmışlar. Erməni terrorçuları xaricdən aldıqları dəstək hesabına qeyri-insani siyasəti yeridərək azərbaycanlıları indi Ermənistan adlandırılan tarixi torpaqlarından didərgin salmış, qırğınlar həyata keçirmiş, yurd-yuvalarından didərgin salmışlar. Ermənilərin bölgədə süni şəkildə artırmaq üçün zaman-zaman iş aparılmışdır. Nəticədə, əhali sayını qismən də olsa artırmağa nail olmuşlar. Azərbaycanlıların kütləvi öz yurd-yuvalarından köçürülməsi üçün ermənilər hər cür vasitə və üsullardan istifadə etmişlər. XIX-XX əsrlər arasında çox hissəsi indi Ermənistan SSR-i təşkil edən yalnız İrəvan quberniyasının ərazisində 407.4 min nəfər əhali yaşayırdı ki, bunun da 250 min nəfərdən çoxu azərbaycanlılardan ibarət idi.1918-ci ildə bu ərazidə 575 min nəfər azərilər yaşayırdı. XX əsrin əvvəllərindən başlayaraq ardıcıl şəkildə tarixi Azərbaycan ərazisində ermənilər kütləvi şəkildə yerləşdirilmiş, Qafqazın cənubunda Ermənistan dövlətinin yaradılması üçün azərbaycanlıların ən qədim torpaqlarından, ata-baba yurdlarından qovulması, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir. 1905-1907-ci illərdə çar Rusiyasının hakim dairələri tərəfindən müdafiə olunan və hərəkətə gətirilən erməni millətçiləri azərbaycanlılara qarşı genişmiqyaslı qətllər və vəhşiliklər etdilər.



Zəngibasar toponimi tarixi şəxsiyyət Zəngi ibn Mədudun hidronimləşmiş adıdır. "Təxti-Süleyman" dan əvvəl Zəngi çayına Çıldır çayı demişlər. Qızıl Arslanın dövründə İrəvən Çuxuruna vassal təyin edilən Zəngi öz adını bu çaya verib özünü əbədiləşdirməyə nail olmuşdur. Bəzi araşdırıcıların gəldiyi qənaətə görə isə Zəngi başlanğıcını dəniz səviyyəsindən hündürdə yerləşən və qədim adı türk mənşəli Çıldır olan Göyçə (Sevan) gölündən götürüb, aşağı axdıqca zəng səsi çıxarır. Tanınmış maarifçi və ədəbiyyatşünas Firudin bəy Köçərli bu mahal haqqında belə yazır: "Zəngibasarda xeyli böyük və abad dehal və şenliklər vardır. Bu yerlərin əhalisi öz torpaqlarına pambıq, çəltik, buğda əkməklə və bağ becərməklə yaxşı məhsullar götürürlər... Böyük Ağrının təpəsi həmişə qarla örtülü olur, amma Kiçik Ağrının başı yay fəslində qardan xilas olub, onun üstündə ağaclar və hər qisim çiçəklər və ələfiyyat bitib göyərir". Göyçə (Sevan) gölü üç dağın arasında yerləşir və hal-hazırda bu gölün dörd adı var: İldir, Geğam, Sevan, Göyçə. IV əsrdə azəri türkləri atəşpərəstliyi, VII əsrin 30-40-cı illərində müsəlmanlığı qəbul edib, yaşıl bayrağın altına keçmişlər. Zaqafqaziya xristianları içərisində erməni Qriqoryan kilsəsi hər şeyi öz əlinə alıb hökmranlıq etmək istəyəndə gürcü pravoslav kilsəsi ondan üz döndərdi.



## Erməni kilsələrində fahişəlik təşəkkül tapmışdı

Ermənilərin dini inancları və ibadətləri də digər xristian millətlərindən fərqlidir. Bu baxımdan, onları xristian adlandırmaq da düzgün deyil. Rusların, polyakların xaçlarının üç küncündə günəş rəmzi oduğu halda, erməni xaçlarında bu əlamət yoxdur. Gürcülərin erməni kilsəsindən uzaqlaşmağının bir səbəbi də bu idi ki, Qriqoryan kilsəsində fahişəlik təşəkkül tapmışdı və çox sürətlə çoxalırdı. Lüt tayfasına mənsub olan ermənilərin müasir nəsillərin mənşəyi fahişələrlə bağlıdır. Onlardan törənənlərin isə izaha ehtiyacı yoxdur. Ermənidə satqınlıq, öz xeyri üçün casusluq güclüdür. Erməni çörək yeyən qonağın ağzına baxar. Zəngibasar ərazisində yerləşən azərbaycanlı kəndlərinin tarixinə diqqət yetirsək görərik ki, daşda, qayada, misdə, dəmirdən, kağızda insan izi, sözü qalmışdır, əsrlərin qovğasına, savaşına, yağışına tab gətirmiş qaynaqlar da bunu sübut edir. Erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri qırğınlar bu bölgədən də yan keçməmişdir. Erməni quldur dəstələri 1918-ci ilin martınadək İrəvan qəzasının 199 azərbaycanlı kəndini, 1919-cu ilin oktyabrınadək isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndini yerlə-yeksan etmişdir. Yenə də tarixi mənbələrə, məxəzlərə istinad etsək görərik ki, bu torpaqlarda yaşamış azərbaycanlıların ulu əcdadları e.ə. I minillikdə fəaliyyət göstərmişlər. E.ə. VIII-VII əsrlərdə Urartu ərazisinə daxil olan indiki Ermənistan adlanan ərazi şimaldan gələn kimmerlərə (kəmərlər), skiflərə (nekitlər, saklara, quqarlara, şiraklara) aid olmuşdur. Urartu qaynaqlarında bu ölkə Emoxi, Etuni, İrpuni və s. adlandırılmışdır. Bizim eranın əvvəllərinə doğru bu ərazidə türkdilli hunlar, kəngərlər, bolqarlar, xəzərlər və digər soylar məskunlaşmışlar. XI-XII əsrlərdə bu ərazidə oğuzlar da yaşamışlar. Sisyanda, Qafanda, Uluxanlıda (Zəngibasar), Qəmərlidə, Dərəçiçəkdə, Ağbabada olan abidələr, qalalar, məzarlar, qəbirüstü daşlar, məscidlər azərbaycanlıların tarixi keçmişinə aid yerlərdir. Bu torpaqda azərbaycanlılar əsl mənada soyqırımı siyasətinin qurbanı olmuşlar. Qərbi Azərbaycan ərazisindəki Qarğabazar, Bazarxana, Bazarcıq, Bazar keçər, Zəngibasar kimi yer adlarını ermənilər dəyişdirmiş və erməniləşdirmişlər.

Qərbi Azərbaycan ərazisində Zəngibasar rayonunu (1937-1953) 1969-cu ildən ermənilər Masis adlandırmışlar. 1937-ci il dekabrın 1-də inzibati rayon kimi təşkili üçün Qəmərli ərazisindən 18 kənd, Eçmiədzin (Vağarşabad) rayonu ərazisindən 14 kənd onun tərkibinə verilmişdir. 1953-cü ildə rayon ləğv edilmişdir. Zəngibasar rayonunun ərazisi cənubdan Türkiyə, qərbdən Eçmiədzin, şərqdən Artaşat rayonları ilə həmsərhəd idi. 1969-cu ildən Zəngibasar rayonu bərpa olunmuş, adı dəyişdirilərək Masis adlandırılmışdır. Rayonun sahəsi 170 km² , əhalisi 55300 nəfər (1979-cu il) olmuşdur. Əhalinin əksəriyyəti azərbaycanlılar idi. Bölgənin tarixinə nəzər salsaq görərik ki, ərazisi 428-640-cı illərdə Ayrarat qəzasına daxil olmuş, 1230-cu ildə monqolların işğalına məruz qalmışdır. 1600-cü ildən İranın Çuxur-Səd hakimiyyəti altına düşmüş İran şahı Şah Abbas (1587-1629) zamanı 1604-cü ildən ermənilərin bu əraziyə ilk mühacirəti başlamışdır.1827-ci ildə bu ərazi Çar Rusiyasının əsarətinə keçmişdir. Tarixi sənədlərdə təsdiq olunmuşdur ki, "qədim türk etnosları e.ə. VIII-VII əsrlərdə indiki Ermənistan adlanan ərazilərdə yaşamış yerli xalqlar. Bunlar indiki azərbaycanlıların ulu əcdadı olmuşlar. O vaxt bu ərazilərdə ermənilər yaşaqmışlar".

Göründüyü kimi, faktlar təsdiq edir ki, ermənilər Azərbaycan ərazilərinə köçürülmədir. Köçürüldükləri zamandan azərbaycanlılara qarşı vəhşiliklər törətmişlər. Əgər 44 günlük Vətən Müharibəsində Azərbaycanın müzəffər ordusu erməni vəhşiliyinin qarşısını almasa idi, bəlkə də az müddət sonra bəşəriyyət dəhşətli terrorla üzləşməli olardı. Ancaq görünən ondan ibarətdir ki, erməni vəhşiliyi tam şəkildə aradan qalxmayıb. Bunun üçün dünya birliyinin, demokratik düşüncəli xalqların ermənizmə qarşı birləşməsinə zərurət var.

***İ.ƏLİYEV***

# Orqan ticarəti: İnsanların orqanları yalnız sağ ikən götürülür

***Ötən il dünyada orqan köçürülməsi əməliyyatlarının sayı 30% artıb. Hər il təxminən 120 min orqan transplantasiyası həyata keçirilir. Bu rəsmi rəqəmlərdir. Qeyri-rəsmi rəqəmlər isə dəfələrlə böyükdür və bu ticarətin qlobal dövriyyəsi trilyonlarla ölçülür. Bir müddətdir ki, Azərbaycanda da orqan transplantasiyası haqda yeni qanunun qəbulu məsələsi yenidən aktuallaşıb. Söhbət ölüm diaqnozu qoyulan şəxslərdən orqanların götürülməsi ilə bağlıdır. Müvafiq qanun layihəsi parlamentə təqdim olunub və müzakirəsi aparılır. Lakin bu mövzuda fikirlər fərqlidir. İlk baxışda humanist bir addım kimi görünsə də, əslində, heç də elə deyil.***



*Orqanların çıxarılması insan sağ ikən baş verir, çünki meyitdən götürülən orqanlar heç nəyə yaramır*

### Məsələnin alt qatlarında daha dəhşətli faciələr yatır

Düzdür, kimisə xilas etmək üçün kiminsə orqanını bağışlaması humanist hərəkətdir. Lakin burada çox mürəkkəb məsələlər var. Əvvəla, tədqiqatçıların rəyinə görə, tam ölüm zamanı heç bir orqan götürülüb köçürülə bilmir, çünki o orqan yararsız olur- göz qişasından başqa. Əgər müvafiq qanun qəbul olunsa, bu halda həkimlər beyin ölümü diaqnozu qoyduqları xəstənin hələ tam ölməmişkən orqanlarını götürə bilərlər. Halbuki, adam hələ həyatdadır. Bundan qlobal orqan mafiyası necə lazımdır istifadə edir və orqan ticarətinin dövriyyəsi trilyonlarla ölçülür.

Çox zaman bunu donora "beyin ölümü" diaqnozu qoymaqla edirlər. Beyin ölümü və digər bu tip tibbi diaqnozları təsdiq edən elmi mərkəzlər də həmin qlobal mafiyanın nəzarətindədir. Üstəlik, beyin ölümünün təyin olunma mexanizmi və bunun tam ölüm sayılması barədə dünya elmi tibb mərkəzləri həmfikir deyil. Son illərdə "beyin ölümü" faktının əleyhinə daha çox elmi faktlar ortaya qoyulur.

Beyin ölümü belə insanın tam ölümü demək deyil. Bu halda sağ insanın orqanların götürülməsi xəstənin icazəsi olmadan, yəni, onu öldürərək alınma halıdır. Beyin ölümü diaqnozundan sonra sağalıb yaşayan minlərlə adam var dünyada. Bu halda beyin ölümü diaqnozu qoyularaq şəxsin orqanlarının zorla götürülməsi cinayətdir. Yəni, hətta birini xilas etmək naminə belə digərini öldürmək cinayət faktıdır. Şəxs xəstəliklə bağlı şüurunu itirmiş haldadırsa, hətta ailə üzvlərinin belə buna icazə verməyə ixtiyarı, hüququ yoxdur, olmamalıdır. Yalnız bədən sahibi öz rəsmi vəsiyyəti ilə buna icazə verərsə, qəbul etmək olar, o da buna məcbur olması və ya bundan pul qazanmaq fikri haqda şübhələr olmadıqda. Öldükdən sonra isə, dediyim kimi, heç bir orqanı istifadə eləmək olmur, yalnız göz qişasından başqa.

### Orqan ticarəti müharibələrə və terrora rəvac verir

Bəzi ölkələrdə bu qanunun qəbul edilməsi orqan qaçaqçılığına və ticarətinə vüsət verib. Hətta, bəzi müharibələr məhz bu məqsədlə törədilir. Müharibə regionlarında, yoxsul ölkələrdə böyük miqyasda cinayətlər törədiliryüz minlərlə insanın, hətta uşaqların sağlam insanların orqanları zorla alınır və varlı ölkələrə satılır.

Dünyanın ən dəhşətli terror təşkilatı İŞİD də bu işlə fəal məşğul olur və əsir aldığı şəxslərin orqanlarını Qərb ölkələrindəki varlılara satır. Bəzən isə, müharibə bölgəsindəki yoxsul insanlar özləri könüllü olaraq orqanlarını terrorçu təşkilatlara və orada işləyən orqan mafiyalarına satırlar. Bu əməliyyatlardan ildə on milyonlarla pul qazanır.

Ümumən, Qərbin Yaxın Şərqdə törətdiyi terror və müharibələrdən sonra bu ölkələrdə orqanları sağ ikən çıxarılıb öldürülən insanların sayı yüz minlərlə ölçülür. Statistikaya görə, təkcə orqanları çıxarıldıqdan sonra cəsədləri dəfn olunmaq üçün yenidən Suriyaya göndərilənlərin sayı 60 mindən çoxdur.

### Kasıb insanlardan varlı insanlara gedən orqanlar

Qəsdən müharibə törədilən Yaxın Şərq ölkələrindən orqanlarının çıxarılması məqsədilə canlı insan daşındığı ölkələrin içində ABŞ, İsrail və Qərbi Avropa ölkələri ilk yerlərdədir.

Bir az da geniş kontekstdə baxsaq, terror, müharibə törədilmiş kasıb Şərq ölkələrində sağlam insanların orqanları zorakı və kütləvi şəkildə götürülüb qərb ölkələrində istifadə olunur. Kasıbların qurban verilməsi səbəbinə varlılar həyat qazanır. İnsana maddi qiymət qoyulur və o, hissə-hissə satılır. Bundan rəzil hərəkət və bundan böyük cinayət ola bilməz. Faktiki olaraq, dünyada orqan köçürülməsində vəziyyət belədir- varlılar alıcı, kasıblar donor rolunu oynayır! Bu da sosial-psixoloji, mənəvi böhranın son həddi, insan cəmiyyətinin ən rəzil sifətidir.

İtkin düşənlərin çoxunun orqan mafiyası tərəfindən qaçırıldığı haqda ciddi şübhələr var. Amerikada son 20 ildə çoxu uşaq olmaqla 400 min nəfərin itkin düşərək yoxa çıxması çox ciddi reaksiya doğurub. Azərbaycanda da itkin düşənlərin sayı minlərlə ölçülür. Bu şəxslərin necə birdəfəlik yoxa çıxması çox ciddi şübhələr yaradır. Hərdənbir DTX və DİN-in Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə Baş idarəsi tərəfindən orqan ticarəti ilə məşğul olan mütəşəkkil cinayətkar dəstələr aşkar olunur və onlar haqda istintaq aparılır.

### İnsan orqanları bazar malı kimi qiymət qoyulub satılır

Bu biznesin qlobal dövriyyəsi trilyonlarla ölçülür, qurbanları isə milyonlarla.



Bəs niyə müasir insanların öz orqanları sıradan çıxır və donor orqana möhtac qalırlar? Həkimlərin fikrincə, bu artıq həyat tərzi ilə bağlı məsələdir.

Qeyri-təbii qidalanma, qeyri-sağlam həyat tərzi, zərərli vərdişlər insanların orqanlarını sıradan çıxarır. Bu səbəblərin aradan qaldırılması ilə məşğul olmaq lazımdır. Biz bunu araşdırmalıyıq ki, niyə orqan çatışmazlığı yaranır və bunun qarşısını almaq üçün çalışmalıyıq. İnsanları sağlam həyat tərzinə, sağlam qidalanmağa, yeri gəlsə, məcbur etmək lazımdır. Qida təhlükəsizliyi maksimum təmin olunmalı, zərərli vərdiş və texnologiyalara qarşı mübarizə aparılmalıdır.

Yoxsa, kimsə heç bir qaydaya riayət etmədən yaşayır, nəticədə orqanı sıradan çıxır, kimsə də insan kimi sağlam həyat tərzi sürür, sağlam orqanı olur, sonra o varlı və harın şəxsin kefcil və bivec həyat tərzinin ağır nəticələrinin əvəzini bu kasıb olan insan ödəyir. Burda ədalət hardadır?

Yalnız bir halda bunu etmək olar. Bir insan yalnız özü şəxsən və çoxsaylı şahidlərin iştirakı ilə öz orqanını kiməsə verə bilər, misal üçün, yaxın adamını, ya da hansısa bir şəxsi xilas etmək üçün heç bir pul tələb etmədən. Orqan bir şərtlə verilə bilər ki, o, bərpa olunan olsun, şəxsin ölümünə, əlilliyinə səbəb olmasın. Əks halda, bu proses orqan ticarətinin çiçəklənməsinə stimul yaradacaq ki, bu da həyatda ən ağır cinayətlərdən biridir.

***Elçin Bayramlı***
***Sağlam Cəmiyyət Hərəkatının rəhbəri***

ARAŞDIRMA



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Separatçıların yeni qorxulu nağılları

***Rusiya sülhməramlı kontingentinin (RSK) Qarabağda müvəqqəti yerləşdikləri ərazilərdə qalan və eyni zamanda, Kremlin himayəsi altında olan separatçı-cinayətkar quldur rejiminin tör-töküntüləri hər dəfə müxtəlif nağıllar düzüb-qoşmaqla hələ də elə sanırlar ki, onların bu ərazilərdə qalmaları üçün hər hansı şansları var. Daha dəqiq desək, qanunsuz silahlı hərbi birləşmələrin Qarabağdakı mövcudluğunu qoruyub-saxlamaq üçün əllərinə düşən hər fürsətdə təxribatlara əl atan quldur rejim bu dəfə də boş dayanmayıb.***

Daha dəqiq desək, rejim təmsilçisi Qurgen Nersisyan feyk məlumat yayaraq bildirib ki, guya Azərbaycan tərəfi Ermənistandan Qarabağa getmək istəyən ermənilər qarşısında "şərt" qoyub ki, onları yalnız bir şəkildə buraxa bilərlər – o da Azərbaycan vətəndaşlığını qəbul etdikləri halda (?!).Əslində, erməni tərəfinin bu dərəcədə siyasi həyasızlığa və şər-böhtana əl atmalarından heç də təəccüb etməyə dəyməz. Bu, necə deyərlər onların köhnə xəstəlikləridir və bu xəstəlik sağalmazdır. Ancaq qoşduqları nağılları da istər-istəməz bəzi digər məqamları da üzə çıxarmağa vadar edir. Bakı dəfələrlə bəyan edib ki, əslən Qarabağdan olan ermənilər Azərbaycanın vətəndaşlarıdırlar və bu, faktdır. Lakin buradan aydınlaşdırmaq lazımdır ki, Nersisyan hansı səbəbə görə bu feyki önə sürüb?Beləliklə, "şərt" məsələsi söz yox ki, absurd iddiadan başqa heç nə deyil.

Məsələn, lap elə sanaq ki, Bakı belə bir təklifi irəli sürüb və hansısa ermənilər də bu təklifləri qəbul ediblər. Yəni İrəvandan Xankəndiyə gedən Hakop, Mkrtıç, yaxud Hovanes sərhəd-buraxılış məntəqəsində saxlanılır və onlardan tələb edilir ki, Azərbaycan vətəndaşlığını qəbul etsinlər. Onlar da buna razılaşırlar. Yaxşı, bəs belə olan vəziyyətdə onların sənədləri harada qəbul olunacaq? Pprosedurları kim və necə icra edəcək? Ən əsası – Hakop, Mkrtıç və Hovanes günü bu gün Xankəndiyə daxil olmaq istəyirlər, amma onlara vətəndaşlıq sənədi bir neçə həftəyə veriləcək. Yoxsa ki, onlardan Azərbaycan vətəndaşlığına daxil olacaqları ilə bağlı şifahi vəd alınacaq?Digər tərəfdən, nə qədər gülünc iddia irəli sürdüyünü özü də yaxşı bilən Nersisyan buna baxmayaraq həmin iddiasının üzərində inadla dayanır. Onda belə çıxır ki, həmin iddianı irəli sürmək ona mütləq lazımdır. Bəs nəyə görə? Məsələ ondadır ki, separatçılar artıq ermənilərə məlumat veriblər ki, Qarabağdan Ermənistana getmək istəyənlər RSK-dan icazə almalıdırlar, o da ki, ən vacib olan halda. Belə ehtimal etmək olar ki, Nersisyan çıxış üçün vizalar tətbiq edib. Onun Azərbaycanın "ultimatum" irəli sürməsi iddiası isə dediklərini "təsdiq" etməyə yönəlmiş uğursuz cəhddir.

Fakt budur ki, Qarabağ ermənilərinin Ermənistana getmələri artıq probleme çevrilib və bu problemi onlara separatçı-quldur rejim tətbiq edir. Və bütün bunlara rəğmən, Ermənistana getmək istəyənlərə də qorxulu nağıl icad ediblər. Yəni getsən, qayıdanda azərbaycanlılar sənə icazə verməyəcəklər və s, və i...Məqsəd isə bəllidir – Xankəndinin boşalmasının qarşısının alınması. "Blokada" adlı tamaşa və separatçıların perspektivliyi isə gec, ya da tez sabun köpüyü kimi partlayıb-yox olacaq. Getmək istəyənlər gedəcək, qalmaq istəyənlər də qalacaq.Ona görə də artıq hər şeyin bitəcəyinin sürətlə yaxınlaşdığını anlamağa başlayan separatçılar bilirlər ki, Xankəndidə az insan qaldıqca onların rejimlərinin də sonu çatır...Yəqin ki, bu nağılların qoşulmasında RSK-nın də öz rolu var. Əgər bu cinayətkar qurum özüözlüyündə məhv olmaqdadırsa, onda Kremlin də regiona təsir rıçaqları itirilir. Ancaq bu cəhdlər də boşdur, çünki zaman da, regionun əsl sahibləri də hər şeyi öz yoluna qoyur. Az qaldı, çox az...

# Dərs ili bitməmiş buraxılan məktəblilər

## *Martda buraxılış imtahanını verən şagird iyunadək məktəbə niyə getsin ki?*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

**Dərs ilinin başa çatmasına hələ 3 aya yaxın vaxt var, tədris ili bitməmiş buraxılış imtahanlarının keçirilməsi həm valideynlərin, həm də müəllimlərin haqlı narazılığına səbəb olur. Etiraz edən müəllimlər dərs proqramı bitməmiş imtahanların keçirilməsi şagirdlərin imtahan nəticəsinə və dərsə davamiyyətinə təsir etdiyini deyir. Eyni fikirdə olan valideynlər buraxılış imtahanından sonra məktəbə getmək istəmədiyini bildirir.**



### "Bütün biliklər 1-ci yarımildə verilir" iddiası

Bu dərs ilində buraxılış imtahanlarının ikinci yarımilin ortasında keçirilməsi nəzərdə tutulduğu üçün Azərbaycan dili, riyaziyyat və xarici dil fənlərindən tədrisi həmin dövrə təsadüf edən mövzular proqrama salınmayıb. DİM-dən verilən açıqlamada belə deyilirdi. Bildirilirdi ki, həmin mövzular ali təhsil müəssisələrinə qəbul imtahanı proqramlarına daxil ediləcək.

DİM direktorlar şurasının sədri Məleykə Abbaszadə açıqlamasında bildirir ki, tədris proqramlarına görə xarici dil fənnindən 9-cu sinifdə, tədris dili və riyaziyyat fənləri üzrə isə 11-ci sinifdə dərs ilinin birinci yarımilində əsas bilik və bacarıqlar formalaşmış olur. Qeyd olunanlar nəzərə alınaraq, buraxılış imtahanları dərs ilinin ikinci yarısında istənilən vaxtda keçirilə bilər.

### "Absurd qərardır"

Təhsil eksperti Ramin Nurəliyev isə bildirir ki, Dövlət İmtahan Mərkəzinin mart ayında 11-ci siniflərin, aprel ayında 9-cu siniflərin buraxılış imtahanı keçirməsi birmənalı olaraq absurddur: "Nəzərə alsaq ki, bu imtahanın adı buraxılış imtahanıdır və ümumtəhsil məktəblərində buraxılış sinifləri iyun ayının 15-nə kimi dərsdə iştirak etməlidirsə nə səbəbə bu imtahan 3 ay əvvəl keçirilməlidir. Bəs 3 ayın mövzuları necə olacaq? Martda keçirilən imtahandan sonra şagirdlərin məktəbdən soyuması halları baş verir".

"DİM buraxılış imtahanı tarixlərini də imtahana bir ay qalmış elan edir. Bu da doğru deyil. İmtahan tarixləri, mövzuları, proqramı ən azı tədris ilinin əvvəlində elan edilməlidir, şagirdlər də öz planını buna müvafiq uyğunlaşdırmalıdır. Bu prosesdən təkcə abituriyentlər deyil, müəllimlər də narazıdır. Proqramın çatdırılmasında çətinlik çəkdiklərini ifadə edirlər. Buraxılış imtahanının ən tez may ayında keçirilməsi arzuolunan hesab edilir. İllərlə buna etiraz olunmasına rəğmən DİM hələ də bunu diqqətə almayıb. Buraxılış sinifində oxuyanlar imtahandan sonra dərslərə laqeyd yanaşır. Azərbaycan dili, riyaziyyat və ingilis dili fənləri üzrə bütün dərsləri və tapşırıqları əhəmiyyətsiz hesab edirlər".

### Problem bir deyil, çoxdur

Ekspert buraxılış imtahanın 3 fərqli tarixdə verilməsinin doğru olmadığı qənaətindədir. Bildirir ki, hər bir tarixdə fərqli səviyyəli suallar ola bildiyi üçün nəticələr dəyişilə bilər: "Buraxılış imtahanında xarici dili başqa dildə verən abituriyentlərin 3 saata Azərbaycan dili və riyaziyyat fənninə ayırması da bir ayrı müəmmalı məsələdir. Buraxılış imtahanı suallarının çətin salınaraq balların aşağı salınmasına təsir göstərməsi də həmçinin. Doğrudur, ixtisasların keçid balları aşağı salınır, amma bununla da həmin ixtisasların dəyəri gözdən düşür. Universitetlərdə boş yerlərin qalması və həmin yerlərə abituryentlərin qəbul ola bilməməsi məsələsi də var. Apellyasiya müraciətlərinə düzgün baxılmır, bir çox apellyasiyaya müraciət edənlərə cavab verilmir. Qabiliyyət imtahanlarında qeyri-qanuni hallara müdaxilə edilmir. DİM bu məsələni mütləq nəzarətə götürməlidir".



Ekspertin sözlərinə görə, universitetə qəbul olanların universitetlərə qeydiyyatından sonra boş qalan yerlərə ikinci qəbulun açılması məsələsi də gündəmə gətirilməlidir. İl boyu sınaq imtahanlarında iştirak edən abituriyentlər buraxılış imtahanında tamamilə fərqli suallarla qarşılaşıblar, buna görə də buraxılış sınaq imtahanının keçirilməsi şərtdir. Əvvəlki ilin məzunlarının qeydiyyat zamanı təhsil məlumatlarının tam olmaması üçün bürokratik süründürməçilik halları aradan qaldırılmalıdır. Subbakalavrlara qiyabi təhsil məsələsində dəstək verilməlidir. Buraxılış imtahanının mart ayında keçirilməsi isə, ümumiyyətlə, absurd qərardır.



### "Dərs ili bitməmiş kimi haradan buraxırıq?"

"Martda buraxılış imtahanı olar? Bunu hansı ağılla fikirləşiblər? Haradan, kimi buraxırıq? Axı dərs ili bitməyib?! DİM publik hüquqi şəxsdi. Öz pulunu özü qazanır. Amma DİM-in fəaliyyəti hansı qanuna əsasən orta məktəbin fəaliyyətini axsadır? Dərs ili 14 iyunda bitdiyi halda nə əsasla buraxılış imtahanları tez keçirilir? İmtahanı vermiş şagirdi hansı üsulla təzədən məktəbə gətirmək olar? Və ya nəyə görə şagirdləri belə sıxışdırırıq? Qəbul imtahanları niyə dərs ili bitməmişdən keçirilməlidi? Çünki DİM-in əməkdaşları yayda xaricə istirahətə gedəcək?"

Bu iradı isə 71 nömrəli məktəbin direktoru Ülviyyə Mahmudova bildirir. Müsahibimiz DİM-in əməkdaşlarının repetitor fəaliyyətinə və vəsait çap etməsinə də toxundu: "Niyə qadağa qoyulmur? DİM imtahanı təşkil edən orqandır. Sualları tərtib edən orqan olmamalıdır. Suallar Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanmalı, zərfdə təqdim edilməli, DİM imtahanı təşkil etməlidir. Dövlət qulluğuna qəbul və 5 ili tamam olmuş işçilərin yoxlanıması lap bərbaddır. Belə ki, hüquq, incəsənət, təhsil, qida sənayesi və s. ixtisasların hər hamısında qəbulda eyni suallardır. Bundan əlavə 80-200 manat arası ödəniş alır, hər sahəyə uyğun attestasiya sualları hazırlamır. Bütün mərhələlər qanun məntiq, dünyagörüş suallarından imtahan verir eyni suallardan və o qədər ödəniş almaqlarına baxmayaraq sual kitabçalarını müdavimlərə vermir. Çünki sualların səhvləri müzakirəyə çıxarılacaq. 5 il dövlət qulluqçusu işləyən şəxs yeni işə qəbul olunanlarla eyni imtahanı verməməlidir. İşinə uyğun attestasiya olunmalıdır. Mənə elə gəlir ki, DİM-in fəaliyyəti dövlət tərəfindən ciddi nəzarətə götürülməlidir".

Müəllim Şahmar Hümbətovun sözlərinə görə bu amil istər şagirdlər tərəfindən, istərsə də valideynlər tərəfindən birmənalı qarşılanmır: "Sosial şəbəkələrdə də bu məsələ ilə bağlı çoxlu yazılara, fikirlərə rast gəlirik. Buraxılış imtahanlarının keçirilmə müddətinə razı olanlar da var, narazı olanlar isə daha çox. Təkcə bu il deyil, keçən il də bu məsələ ilə bağlı irad və təkliflərini bildirənlər oldu. Problem nədir bəs? Təbii ki, mövzularda və vaxt darlığında. Tutaq ki, imtahanıar bu il mart ayında oldu. Şagirdlər qeyd edir ki, suallar keçmədikləri mövzulardan salınıb. Yuxarıda qeyd etdiyim ki, sosial şəbəkələrdə də şagirdlərin bu kimi fikirlərinə rast gəlirik. Hətta bu il şagirdlərin televiziyada verdikləri müsahibələrdə də buna rast gəldik. Şagirdlərdən bəziləri şikayətlənirdi. Öz şagirdlərimdən də sorğu almışam. Onların bəziləri "suallar asan idi, keçdiyimiz mövzuları əhatə etmişdi" kimi fikirlər söylədilər. Deyək ki, imtahanlarda suallar elə hansı ayda keçirilir, o aya qədərki mövzuları əhatə edir. Lakin bu problemin aradan qaldırılması demək deyil axı. Yerdə qalan vaxt çatışmazlığı olur.

Görürsünüzmü, fikirlər də fərqlidir. Lakin narazı olanlar çoxdur. Təkcə mənim, ya digər müəllimin şagirdlərinin buraxılış imtahanında sualları rahat işləməsi ilə iş bitmir ki. Burada ümumi problem vaxtın düzgün təyin edilməməsindədir. Bundan əlavə, tədris ilinin ortasında buraxılış imtahanlarının təşkili də düz deyil axı. Şagirdlərin hazırlığı təkcə buraxılış üzrə 3 fənlə bitmir. Onların digər fənlərə hazırlığını (məktəb üzrə) da nəzərə almaq lazımdır. Ən yaxşı halda, şagirdlərin rahat imtahana daxil olmalarını təmin etmək lazımdır. Bu da dərs ilinin ortasında deyil, ən azından, tədris ilinin sonuna çox az qalmış, ya tədris ili bitəndən sonra mümkündür. Bu amil, fikrimcə, buraxılış imtahanlarında olan problemlərin aradan qaldırılmasına böyük təsir göstərəcəkdir".

*Lalə Mehralı*

SON SƏHİFƏ

# Səs

8 aprel
2023-cü il

# “Uşaqları cinsi istismar edənlər kəskin şəkildə cəzalandırılmalıdır”

***“Təəssüf ki, uşaqların qrup halında və ya yaşlı nəsil nümayəndələri tərəfindən seksual zorakılığa tuş gəlməsi faktları günü-gündən artmağa başlayıb. Azərbaycan cəmiyyəti, bizim mental dəyərlərin tarixi üçün yad olan, ümumiyyətlə, indiyə qədər Azərbaycan xalqının nümayəndələri arasında ən bağışlanmaz günah sayılan uşaqlara qarşı seksual zorakılıq faktları çox kəskin şəkildə qınanmalıdır. Tarixən Azərbaycanda baş verən belə hallarda həmin şəxslər linç edilirdi ki, başqalarına da ibrət olsun. Əlbəttə ki, XXI əsrdə belə hadisələrin yaşanmasını istəməzdik”. Bu sözləri SİA-ya açıqlamasında VCA və YYSİB sədri yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.***



Onun sözlərinə görə, seksual zorakılıq edən adamlara qarşı dövlət tərəfindən elə qanunlar tətbiq edilməlidir ki, bir daha heç kim belə bir şeyə cəhd etməsin: “Çünki belə şeylərə məruz qalan qız və ya oğlan uşaqları el içində biyabır olur, heç kim öz qızını həmin oğlana vermir, öz oğluna da təcavüzə uğramış qızı almır. Çox qəribədir ki, cinayəti törədənlər olurlar qəhrəman, əsl kişi, amma qurbanlar isə ictimai qınaq obyekti olurlar. Nə vaxta qədər dövlət bu adamlara yiyə durmalıdır?! Təkcə dövlət yox, cəmiyyət də cinayət qurbanlarının yanında olmalıdır”.

Ekspert sözlərinə davam edərək bildirib ki, artıq müasir dövrdür: “Sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində seksual məsələlərlə bağlı neomaarifləndirmə işləri aparmalıyıq. İnsanlara nə qədər bu tip məsələlərə 18 yaşdan sonra önəm verməyin vacibliyini, intim münasibətlər haqqında ətraflı məlumatları ötürəcəyiksə, bir o qədər bu hadisələr baş verməyəcək. İstər fərdi, istərsə də qrup halında uşaqlara, yeniyetmələrə qarşı zorakılıq törədənlər mütləq həkim-psixoloq nəzarətində, hüquq mühafizə orqanlarının diqqətində olmalıdır. Onların ayaqlarında elektron təhlükəsizlik qolbaqları görməliyik ki, bir nəfərə qarşı zorakılıq tətbiq edən başqasına da eyni şeyi etməsin. Vəziyyət o yerdədir ki, uşaqlarımız çölə çıxa bilmir. İçimizdə qorxu olur ki, hər an kimsə uşaqlarımızı yoldan çıxara, seksual zorakılıq tətbiq edə və mənəviyyatına zərər gətirə bilərlər”.

**Ləman Əlizadə**

# Avtomobillərdən oğurluq edənlər tutulub

Qaraçuxur qəsəbəsi ərazisində “Ford” markalı bir avtomobildən 1600 manat pul və mobil telefon oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini Nadir Qurbanov Suraxanı Rayon Polis İdarəsinin 32-ci Polis Bölməsi əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılıb. Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.



“Hyundai” markalı avtomobildən içərisində pul, bank kartları və sənədlər olan çantanı oğurlamaqda şübhəli bilinən Goranboy rayon sakini, əvvəllər məhkum olunmuş Elmin Əliyev Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində müəyyən olunaraq tutulub. Hər iki faktla bağlı araşdırma aparılır.

# Buz fırtınası iki nəfərin həyatına son qoydu



Kanadanın iki əyaləti - Kvebek və Ontarioda baş verən buz fırtınası nəticəsində iki nəfər ölüb, bir milyondan çox insan işıqsız qalıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, fırtına şaxtalı yağış və güclü külək gətirərək ağacları yıxıb və elektrik xətlərini qırıb.

Məlumata görə, Kvebekdə bir milyona yaxın, Ontarioda isə təxminən 110 min insan işıqsız qalıb. Günün əvvəlində hər iki ştat üçün kəsilmələrin ümumi sayı 1,3 milyonu ötüb. Qeyd edək ki, bu iki əyalət Kanadanın təxminən 39 milyonluq əhalisinin 50 faizindən çoxunu təşkil edir.

**Ləman Əlizadə**

# Dubayda sürücüsüz taksilər olacaq

Dubay 2030-cu ilə qədər 4000 sürücüsüz taksini işə salacaq. SİA xarici qaynaqlara istinadən xəbər verir ki, hökumət bunun üçün sürücüsüz avtomobil istehsalçısı “Cruise” ilə əməkdaşlığa başlayıb. Bu avtomobillərin tətbiqinin tıxacları, yol qəzalarını və zərərli tullantılarının azaldacağı bildirilib.



# Bu ərzaqlar ağciyərləri təmizləməyə kömək edir

***Xaççiçəklilər fəsiləsindən olan tərəvəzlər, eləcə də karotinoidlə zəngin ərzaqlar ağciyərlərin təmizlənməsinə kömək edir. Bu ərzaqlar həm də bir çoxları üçün əlçatandır.***



Yaş ötdükcə ağciyərlərin fəaliyyəti pisləşə bilər, digər tərəfdən də havada toplanan zəhərli maddələr də ağciyərə öz mənfi təsirini göstərir. Bunları nəzərə alaraq, onları təmizləyən ərzaqları rasiona daxil etmək, bu orqanın düzgün fəaliyyətini dəstəkləmək lazımdır. Bu barədə “MedikForum” saytında yazılıb.

Xaççiçəklilər fəsiləsindən olan tərəvəzlər. Brokkoli, gül kələm, eləcə də daha əlçatan olan baş kələmin tərkibində olan antioksidantlar orqanizmdən zəhərli maddələrin xaric olmasını stimullaşdırır.

Karotinoidlə zəngin ərzaqlar. Karotinoidlərin qəbulu ağciyər xərçənginin inkişaf riskinin aşağı salınması ilə bağlıdır. Onlar narıncı və qırmızı rəngli meyvə-tərəvəzlərin tərkibində böyük miqdardadır.

Omeqa-3 yağ turşuları ilə zəngin ərzaqlar. Tədqiqatlara əsasən, yağ turşuları ilə zəngin olan ərzaqlar xroniki astma zamanı son dərəcə faydalı təsir göstərir. Fol turşusu ilə zəngin ərzaqlar. İspanaq, qulançar, çuğundur və mərci ağciyər xərçənginin yaranmasına səbəb olan kanserogen maddələrin orqanizmdən kənarlaşdırılmasını fəallaşdıra bilir.

Sarımsaq. Sarımsağın tərkibində ağciyərlərdə iltihabı azaltmaq və sərbəst radikalları neytrallaşdırmaq qabiliyyətinə malik olan xeyli miqdarda allisin var.

Tərkibində C vitamini olan ərzaqlar. Portağal, qırmızı və yaşıl bibər, limon və qreypfrut, eləcə də kələm müəyyən dərəcədə ağciyərlərin düzgün fəaliyyətinə kömək edir, nəticədə bütün bədənə daha çox oksigen daxil olur.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**

**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**